Xalqın qəzeti!

# Xalq qəzeti

№ 228 (30344) 19 oktyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**8 şəhər, 92 kənd və qəsəbənin bərpası Birinci Qayıdış Planına salınıb. Onların böyük əksəriyyəti 2026-cı ilin sonuna qədər başa çatacaq. Yəni 3 ildən sonra azad edilmiş ərazilərdə, minimum, 140 min insan yaşayacaq.**

# Qarabağ və Şərqi Zəngəzurun bərpası ümummilli hədəfdir

*Bu məqsədlə hər il 4 milyard manata yaxın vəsait xərclənir*



**Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunan ərazilərin mina və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən, nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülüb.**

Bu, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, müasir texnologiyalar əsasında “ağıllı şəhər” və “ağıllı kənd”lərin inşa olunmasına, bu zaman ən müasir şəhərsalma nümunələrindən istifadə edilməsinə, aqrar sahənin, o cümlədən, heyvandarlığın inkişafının reallaşmasına, habelə əhalinin dayanıqlı məskunlaşmasına xidmət edib, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradıb.

*(ardı 7-ci səhifədə)*

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: “18 oktyabr. Müstəqilliyin Bərpası Günü”.

# “Qafqaz evi” “sonuncu sakini”ni gözləyir




**Regional əməkdaşlıq üçün ən optimal variant sayılan “3+3” platforması öz aktuallığını qoruyub saxlayır. Bögədə qonşu dövlətlərin birgə əməkdaşlığını nəzərdə tutan bu format (Türkiyə, İran, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan) barədə müsbət fikirlərini Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iki dəfə səsləndirib. Azərbaycan Prezidenti İlham Əliyev də “Qafqaz evi” ideyasını irəli sürüb. Bir-birini tamamlayan bu iki layihə Cənubi Qafqaz bölgəsində gərginliyin azaldılması, sülhün və sabitliyin bərqərar olması və əməkdaşlığın inkişafı nöqteyi-nəzərindən bütün tərəflərə səmərəli perspektiv vəd edir.**

*(ardı 3-cü səhifədə)*

# “Şuşada sən qonduğun daşa Pir deyəcəyəm”

**“Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır...” Prezident İlham Əliyevin 13 il bundan əvvəl – Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimdə əminliklə söylədiyi həmin fikirlər bu gün müasir Azərbaycan reallıqlarının zirvəsində yer alır. Bizim bayrağımız həqiqətən işğaldan azad etdiyimiz bütün şəhər və kəndlərdə dalğalanır. Bu faktın əks-sədasını haralardan eşitmədik, ilahi!? Bundan şərəfli fakta, hadisəyə şahidlik etmək olardımı?!**

*(ardı 3-cü səhifədə)*

# Paşinyanın Avropa Parlamenti tribunası – alqışdan illüziyaya



Səhifə ⇨ 4

# “Oğul”luq zirvəsində əbədiyyət

**Müharibə təzadlarından biri və bəlkə də, ən qəribəsi odur ki, özü ilə ölüm, qan-qada gətirməklə, nifrət göyərtməklə yanaşı, məhəbbət, qorxaqlıqla yanaşı, cəsarət, qəhrəmanlıq doğurur. Və bəşəriyyətin müharibə adlı cəhənnəmindən keçənlər xalq alqışı, ölməzlik qazanırlar. Onların haqqında dastanlar yaranır, dillərdə sevgi dolu xatirələri dolaşır.**

Bu xatirələrdən birini “Oqonyok” jurnalının müxbiri Konstantin Smirnov qələmə alıb. Özünün yazdığı kimi, təsadüfən Natiq adlı azərbaycanlı döyüşçünün qəhrəmanlığının şahidi olan Konstantin Smirnovun qeydlərindən: “Biz Stepanakertdən (Xankəndi—red) Əsgəran tərəfə gedərkən yolda üzərinə saqqallılar yığışan BMP (zirehli döyüş maşını – red.) ilə rastlaşıb onlara qoşulduq. Erməni yaraqlıları bir neçə gün əvvəl xeyli itki verərək tutduqları kəndi təkcə qədim kilsədə qalıb mövqe tutan Azərbaycan döyüşçülərindən təmizləməyə gedirdilər. Nə həmin gün, nə də səhərisi erməni yaraqlıları döyüş nöqtəsini susdura bilmədilər. Yalnız 3-cü gün kilsə zəbt olundu və sağ qalan yeganə azərbaycanlı döyüşçü əsir götürüldü. O, 5 gün ac-susuz üzərində Azərbaycan bayrağı dalğalanan qədim məbəddə ermənilərə müqavimət göstərib, son anda bayrağı götürüb ermənilərin üstünə getmişdi...”

*(ardı 10-cu səhifədə)*

# Yaxın Şərq: Qəzzadakı partlayış Baydenin səfərini kölgədə qoyub



**Artıq 12 gündür davam edən HƏMAS–İsrail irimiqyaslı qarşıdurması səbəbindən Yaxın Şərqdə gərginlik kritik həddə çatıb. Oktyabrın 17-də Qəzza zolağındakı xəstəxana yüzlərlə fələstinlinin ölümü ilə nəticələnən raket hücumuna məruz qalıb. Dünya ictimaiyyətini dəhşətə salan bu hadisəyə görə tərəflərin heç biri məsuliyyəti üzərinə götürməyib.**

*(ardı 11-ci səhifədə)*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.**

Ölkənizin Müstəqilliyinin Bərpası Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırırıq.

Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına davamlı inkişaf və rifah arzu edirik.

Zati-alinizə xoş arzularımızı və ehtiramımızı bildiririk.

**Qardaşınız,**

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqilliyinin Bərpası Günü münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Azərbaycan sosial və iqtisadi sahələrdə yeni zirvələrə çatmışdır, həmçinin beynəlxalq arenada nüfuzunun daha da artması istiqamətində inamla irəliləməkdə davam edir.

Biz Türkmənistan və Azərbaycan Respublikası arasında qardaşlıq münasibətlərinə böyük əhəmiyyət veririk. Türkmənistan–Azərbaycan əməkdaşlığının daha yüksək səviyyəyə qaldırılması üçün bundan sonra da Sizinlə birlikdə hərtərəfli səylər göstərməyə hazır olduğumu bildirirəm.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və rifah arzulayıram.

**Dərin hörmətlə,**

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqilliyinin Bərpası Günü münasibətilə öz adımdan və Bəhreyn Krallığının xalqı adından Zati-alinizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram.

Uca Allahdan Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzu edirəm.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

***

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqilliyinin Bərpası Günü münasibətilə

Bosniya və Herseqovinanın Serb Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə səmimi salamlarımı, xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası inkişaf edərək regional liderə və iqtisadi gücə çevrilib. Mən fəxrlə deyirəm ki, Bosniya və Herseqovinanın Serb Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı anlaşmaya və hörmətə əsaslanan dostluq münasibətləri, mükəmməl iqtisadi əməkdaşlıq mövcuddur. Böyük geosiyasi dəyişikliklər, həm siyasi, həm də iqtisadi arenada çağırışlar dönəmində hər bir ölkənin daxili işlərinə, eləcə də xarici siyasətinə anlayışla və hörmətlə yanaşmaq son dərəcə vacibdir. Mən qəti şəkildə əminəm ki, ikitərəfli əməkdaşlığımız bir çox sahələrdə genişlənəcək və dərinləşəcək. Səmimiyyətlə inanıram ki, əlaqələrimiz gələcək illərdə də ölkələrimizə faydalı olacaq şəkildə inkişaf edəcək. Mənim qəti niyyətim dostluğumuzu və dəstəyimizi qoruyub saxlamaq, qarşılıqlı hörmət əsasında daha da inkişaf etdirməkdir.

Möhtərəm Prezident, Sizə dərin ehtiramımı bildirir, cansağlığı və firavanlıq, dost Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın***
***Serb Respublikasının Prezidenti***

***

**Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.**

Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına davamlı inkişaf və firavanlıq arzulayıram.

**Zati-alinizə hörmət və ehtiramla,**

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,***
***Baş nazir***

***

**Hörmətli İlham Heydər oğlu!**

Ölkənizin Müstəqilliyinin Bərpası Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası ictimai-siyasi, iqtisadi və sosial sahələrdə əhəmiyyətli nailiyyətlər əldə etmişdir.

Müxtəlif istiqamətlər üzrə yaranmış qarşılıqlı faydalı Azərbaycan–Türkmənistan əməkdaşlığının yüksək səviyyəsini qeyd etmək istərdim. Tam əminəm ki, bizim münasibətlərimiz iki ölkənin xalqları naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və firavanlıq diləyirəm.

**Dərin hörmətlə,**

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

**Çox hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

1991-ci il oktyabrın 18-i Azərbaycan dövlətçiliyinin salnaməsində mühüm tarixə çevrildi. Məhz həmin gün Azərbaycan xalqı gələcək suveren inkişafı ilə bağlı öz seçimini etdi.

Ötən illər ərzində Azərbaycan dünyada layiqli yerini tutub, beynəlxalq münasibətlərin öz xarici siyasətini ardıcıl olaraq müstəqil şəkildə həyata keçirən fəal subyektinə çevrilib.

Sizin rəhbərliyinizlə iqtisadi, sosial və ictimai-siyasi sahələrdə həyata keçirilən islahatlar ölkənin gələcək inkişafına və onun əhalisinin rifahının yüksəlməsinə xidmət edir.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, rifah və çoxşaxəli dövlətçilik fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

***

**Zati-aliləri!**

18 oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə Sizi və Sizin simanızda Azərbaycan xalqını Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan təbrik edirəm.

Bu il Müstəqilliyin Bərpası Günü xüsusilə əlamətdar bir vaxtda qeyd olunur. Belə ki, Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tam təmin edildi. Oktyabrın 15-də Xankəndidə və Qarabağın digər ərazilərində Dövlət Bayrağının ucaldılması bu prosesin təntənəli yekunu oldu.

Biz, həmçinin bu yolda canlarını fəda etmiş bütün qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edirik.

Müstəqil Azərbaycan 1993-cü ildə tarixinin ən çətin və ağır dövründə, süquta uğramaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması tarixi hadisə oldu. Ölkədə sabitlik bərpa olundu, dirçəliş və inkişaf prosesləri başlandı. Ulu Öndərin başlatdığı işləri Siz Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası istiqamətində uğurla davam etdirdiniz. Bu, Sizin milli maraqlara, milli birliyə və beynəlxalq hüquqa əsaslanan ardıcıl və davamlı siyasətinizin əsl təntənəsidir. Bu tarixi nailiyyətin Azərbaycan xalqının Ümummilli Liderinin 100 illik yubileyini qeyd etdiyi bir vaxtda əldə olunması xüsusi məna kəsb edir.

Cənab Prezident, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması işlərində Sizə uğurlar arzulayırıq.

Azərbaycan Respublikasının qələbələri sayəsində bu gün regionda yaranmış yeni bir vəziyyətlə üz-üzəyik. Böyük potensiala və artan geostrateji əhəmiyyətə malik bu regionda əməkdaşlıq və davamlı inkişaf üçün gözəl imkanlar, perspektivlər yaranıb. Həmişə olduğu kimi, biz GUAM olaraq regional sülhün, sabitliyin və davamlı inkişafın təşviqinə bundan sonra da dəstək və töhfə verməyə hazırıq.

Zati-aliləri, Azərbaycanın daha da inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi işində Sizə uğurlar, Azərbaycan xalqına sülh, tərəqqi və firavanlıq arzulayırıq.

**Hörmətlə,**

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

***

**Möhtərəm cənab Prezident!**

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurası adından Azərbaycan Respublikasının Müstəqilliyinin Bərpası Günü münasibətilə təbriklərimizi qəbul edin.

Azərbaycan müstəqillik illərində iqtisadi və sosial sahələrdə böyük uğurlara nail olub. Bu gün Azərbaycan Birliyin ən qabaqcıl mərkəzlərindən biridir, beynəlxalq gündəliyin bir çox məsələlərinin həllində mühüm rol oynayır. Şübhəsiz, Azərbaycan rəhbərliyinin və vətəndaşlarının birgə səyləri respublikanın dayanıqlı inkişafına, suverenliyinin qorunmasına, ölkədə milli birliyin və ictimai həmrəyliyin möhkəmlənməsinə kömək göstərməkdə davam edəcək.

Möhtərəm cənab Prezident, Sizə Azərbaycan Respublikasının tərəqqisi naminə çoxşaxəli fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirik.

**Hörmətlə,**

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının***
***Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası***
***Baş katibinin müavini – Azərbaycan Respublikası***
***Milli Məclisinin MDB Parlamentlərarası***
***Assambleyasında səlahiyyətli nümayəndəsi***

***

**Möhtərəm İlham Heydər oğlu!**

İcazə verin, Sizi və bütün Azərbaycan xalqını Müstəqilliyin Bərpası Günü münasibətilə səmimi-qəlbdən təbrik edim.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın öz dinamik inkişafını davam etdirməsi, genişmiqyaslı layihələri uğurla həyata keçirməsi, xalq həmrəyliyini daim qoruyub saxlaması, dünyada nüfuzunu möhkəmləndirməsi, Rusiya ilə qarşılıqlı faydalı və bərabərhüquqlu dostluq münasibətlərini inkişaf etdirməsi dərin hörmətlə qarşılanır. Azərbaycanın Müstəqilliyin Bərpası Gününü öz ərazi bütövlüyünü tam bərpa etməklə qarşılaması bu tarixi xüsusilə əlamətdar edir.

Sizə, yaxınlarınıza və gözəl respublikanızın bütün sakinlərinə əmin-amanlıq, rifah, xoşbəxtlik və nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı,***
***Azərbaycan Respublikasının parlamenti ilə dostluq***
***qrupunun əlaqələndiricisinin müavini***

## 2023–2024-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** 2023–2024-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbasquliyeva Səmayə İsmayıl qızı
Abbasov Ramin Xəqani oğlu
Abbasova Bənövşə Ramil qızı
Abbasova Rəşidə Baba qızı
Abdulayeva Sabrina Royal qızı
Abdullayev Emil Rasim oğlu
Abdullayev İsmayıl Eltəkin oğlu
Abdullayeva Aytac Mehman qızı
Abdullayeva Səbinə Sərdar qızı
Ağadadaşova Ayla Azad qızı
Ağayev Maksim Maqsud oğlu
Ağayeva Aysu Elgün qızı
Aslanova Leyla Səyavuş qızı
Bəylərli Hafiz Səxavət oğlu
Cəfərov Emil Adil oğlu
Dədəyeva Telli Bilal qızı
Ehtibarova Gülbikə Səfa qızı
Əhmədova Nurgül Nəsrəddin qızı
Əhmədzadə Leyla Ramiz qızı
Əhmədzadə Rəsul Səlim oğlu
Əliquliyeva Ləman Rövşən qızı
Əliyev Seymur Hikmət oğlu
Əliyeva Fatimə Tağı qızı
Əliyeva Məhin Arif qızı
Əliyeva Solmaz Tağı qızı
Əlizadə Sahil Eyyub oğlu
Əsgərzadə Ömər Ruslan oğlu
Əzimova Günay Elistan qızı
Əzizova Mələkxanım İlqar qızı
Fərəcova İnci Əmmar qızı
Hacıyev Arif Nəriman oğlu
Həsənzadə Fəxri Anar oğlu
Həsənzadə Kubra Maqsud qızı
Həsənzadə Nihad Rəşad oğlu
Hüseyn Saud Vasif oğlu
Hüseynli Hüseyn Zahid oğlu
Hüseynli Səkinə Ramin qızı
Hüseynov Anar İsmayıl oğlu
Hüseynov Əli Vasif oğlu
Hüseynova Xədicə Səbuhi qızı
Hüseynova Zəhra Mahir qızı
Hüseynova Zəkiyyə Toğrul qızı
Xankişili Səlimə Elvin qızı
Xəlilova Səfurə Arif qızı
İsayev Hüseyn Vasif oğlu
İsayev Şövqi Əli oğlu
İskəndərov Alxan Azər oğlu
İsmayıllı Sevil Taleh qızı
Kərimli Samir Azər oğlu
Qarayeva Fatimə İlham qızı
Qasımlı Zəhra Fuad qızı
Quliyev Fərid Zaur oğlu
Quliyeva Ləman Sənan qızı
Quluzadə Ülkər Eldəniz qızı
Qurbanov Anar Arzu oğlu
Qüdrətli Nihad Rəşad oğlu
Mahmudlu Fərid Elxan oğlu
Maksimova Aminə Sadir qızı
Mehdiyev Seyfulla Cəlal oğlu
Məhərrəmli Turani Yusif oğlu
Məmmədli Əli Mayis oğlu
Məmmədli Təhminə Oktay qızı
Məmmədov Ayaz İqbal oğlu
Məmmədov Ayxan Vüqar oğlu
Məmmədov İslam Yalçın oğlu
Məmmədov Nurlan Rəşad oğlu
Məmmədova Fatimə Saleh qızı
Mənsumova Fatimə Maarif qızı
Miryusifzadə İsmayıl Yalçın oğlu
Mirzəyeva Gülüstan Tahir qızı
Muxtarlı Nihad Bayram oğlu
Musayev Elvin İlqar oğlu
Mustafayev Rəsul Tərlan oğlu
Mütəllimov Rəvan Azər oğlu
Nəsibov Zahid Ramil oğlu
Nəzərov Cavid Mehman oğlu
Niftəliyev Əli İlham oğlu
Nuriyeva Aynurə Samir qızı
Nurulu Mahir Vidadi oğlu
Ömürova Səbinə Qəfər qızı
Payızova Nuranə Elşən qızı
Rəcəbova Aysu Yusif qızı
Rəhimli Rəna Coşqun qızı
Rəhimli Vaqif Müşviq oğlu
Rəhimova Fidan Fuadovna
Rüstəmova Aytac Bəxtiyar qızı
Rüstəmzadə Əzizə Rəşad qızı
Sadıxlı Zəhra Şahin qızı
Səfərova Nəzrin Cahangir qızı
Səlimova Aysel Anar qızı
Səmədli Nicat Sərdar oğlu
Süleymanov Mirzə Elman oğlu
Şəkizadə Banuçiçək Ədalət qızı
Şirin Türkan Dəyanət qızı
Şükürlü Aygün Ramil qızı
Şükürlü Hicran Zaur qızı
Tağıyeva Aqilə Vüqar qızı
Tağıyeva Zöhrə Müşvüq qızı
Verdiyeva Fəridə Faiq qızı
Yediyarlı Nərgiz Əslan qızı
Zamanlı Əli Ceyhun oğlu
Zeynalov Kamran Natik oğlu.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 18 oktyabr 2023-cü il**

## Baş nazirin Türkiyə Ali Məhkəməsinin sədri ilə görüşü



**Oktyabrın 18-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarcanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüş zamanı iki ölkə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

Baş nazir cari ilin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin qurulmasının 100-cü ildönümü ilə hər iki ölkə üçün xüsusilə əlamətdar olduğunu bildirib.

Türkiyə Ali Məhkəməsi sədrinin Şuşada keçiriləcək Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda və Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının təsis yığıncağında iştirakının önəmi xüsusi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan–Türkiyə münasibətləri müasir mərhələdə hər iki ölkənin liderləri – İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə hərtərəfli inkişaf edərək strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatıb.

Tərəflər Türkiyə Prezidentinin ötən ay Naxçıvan Muxtar Respublikasına səfərinin qardaş ölkələr arasında əlaqələrin bütün sahələrdə daha da sürətli inkişafına mühüm töhfə verəcəyinə əminlik ifadə ediblər. Bu baxımdan, dövlət başçılarının İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirakı, eyni zamanda, iki ölkə arasında imzalanmış Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolunun və Türkiyənin Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisi haqqında Əməkdaşlıq Sazişinin əhəmiyyəti qeyd edilib.

Azərbaycan–Türkiyə Strateji Əməkdaşlıq Şurasının, həmçinin Birgə Hökumətlərarası Komissiyanın iclaslarında qəbul edilən qərarların effektiv icrasını mühüm faktor kimi dəyərləndirən Ə.Əsədov cari ilin 9 ayında ticarət dövriyyəsinin 42 faiz artaraq rekord məbləğə çatmasının sevindirici hal olduğunu deyib.

Azərbaycan ilə Türkiyənin məhkəmə-hüquq sistemləri arasında münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olunub.

Məhkəmə-hüquq orqanları arasında əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində davam etdirilməsinin, mütəmadi qaydada təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün faydalı olacağı diqqətə çatdırılıb.

Görüşdə həmçinin iki ölkə arasında sərmayələrin qoyuluşu, enerji, nəqliyyat-tranzit və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

**XQ**

# “Qafqaz evi” “sonuncu sakini”ni gözləyir

## Hələlik “5+?” mərhələsində olan bloka qoşulmağa tərəddüd edən Ermənistandır




(əvvəli 1-ci səhifədə)

Amma çox təssüf ki, bu bloka dəvət edilən iki aktor – Gürcüstan və Ermənistan Tbilisinin göstərdiyi səbəb bu idi ki, Gürcüstanın Rusiya ilə diplomatik münasibətləri yoxdur. Buna görə onun Moskva ilə eyni platformada iştirakı çətin görünür. Amma son vaxtlar Gürcüstan hökumətinin mövqeyində yumşalma hiss edilməkdədir. Burada Ankaranın Tbilisini dialoqa inandıra biləcəyinə ümidlər daha çoxdur. Prezident İlham Əliyev bu yaxınlarda Gürcüstana səfərində bu ölkənin Ermənistan–Azərbaycan sülh dialoqunda vasitəçi olması, hətta Gürcüstan Baş nazirinin sülh danışıqlarının Tbilisidə aparılması təklifini dəstəklədiyini açıqlayıb. İki qonşunun üçüncü qonşunun evində əyləşib məsələləri öz aralarında çözə bilməsi daha real deyilmi? Bu suala rəsmi İrəvanın nə cavab verəcəyi maraqlıdır.

İrəvanın həm “Qafqaz evi” ideyasına, həm də Tbilisinin vasitəçilik təklifinə münasibəti tam aydın deyil.

* * *

Bu formatın pozitivliyi həm də ondadır ki, ətraf dövlətlərin də maraqları nəzərə alınır. Bölgədə sülh, əmin-amanlıq hökm sürür, regional layihələrə start verilir. Əgər yaxın aylarda Ermənistan və Azərbaycan arasında sülh sazişi imzalansa, həm “3+3”, həm də “Qafqaz evi”nin formalaşması və fəaliyyəti sürətlənə bilər.

Müstəqilliyi işğalçılıq siyasəti ilə yaşıd olan Ermənistan üç on ildən çoxdur ki, regionda gerçəkləşdirilən nəhəng layihələrində iştirakdan və deməli, qazancdan məhrum olub. Gəlirdən məhrum olması bir yana, özünütəcrid siyasəti Hayastanı dalana dirənmiş vəziyyətə salıb.

44 günlük Vətən müharibəsindən dərhal sonra Azərbaycanın Naxçıvana dəhliz vermək, eləcə də bütün kommunikasiyaların qarşılıqlı açılması ilə bağlı təkliflərini ən müxtəlif bəhanələrlə qulaqardına vuran İrəvan hələ də “fikirləşir”. Bakının isə gözləməyə vaxtı yoxdur və o, Mehriyə qədər yolun öz ərazisindən keçən hissəsinin inşasını sürətlə davam etdirir.

Paşinyanın Zəngəzurla bağlı tərəddüdlərinin aradan qalxmasına imkan verməyən, onu həm də Moskvaya qarşı qızışdıran Fransa başda olmaqla Qərbin Cənubi Qafqazda öz maraqlarını güdən güclərin bu dəhlizin Türkdilli dövlətləri birləşdirəcək “Turan yolu”na çevrilməsindən əndişəsi də var.

Rəsmi İrəvan faktiki olaraq məhz xaricdən təzyiqləri səngiməyən lobbi və diaspor təşkilatlarının, eləcə də üzdə “ermənipərəst”, astarında isə “mənsəbpərəst” güclərin diktəsi ilə hərəkət etməyə məcburdur. Amma Nikol Paşinyan, yəqin ki, bölgədə geosiyasi durumun, qüvvələr nisbətinin, həmçinin onların konfiqurasiyanın dəyişdiyinin fərqindədir. O, indiki məqamda çox gözəl anlayır ki, əgər Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirən yol İran ərazisindən keçərsə, bu halda Ermənistan daha bir transmilli layihədən, eyni zamanda, böyük gəlirdən məhrum olacaq. Bunun nəticəsində isə Hayastanın ətraf aləmə çıxışı qarşıdakı onillər boyu ilin sadəcə iki ayında keçiləsi mümkün sayılan Lars marşrutunun ümidinə qalacaq. Özünü “Qafqaz evi”ndə görmək istəməyən İrəvan üçün yaranacaq vəziyyətin ən acınacaqlı tərəfi Zəngəzur dəhlizinə razılığını verməməklə Ankaranın da sərhədi hayların üzünə açmasını əngəlləyəcək. Beləliklə, Ermənistanın ətraf aləmə Türkiyə vasitəsilə çıxış imkanı da qapanacaq.

***

Əgər belə davam edərsə, itirən yenə Ermənistan olacaq. Hiss olunur ki, Nikol Paşinyan dəhliz məsələsində zamanın Ermənistanın əleyhinə işlədiyini anlayır. Burada gizli heç nə yoxdur: Zəngəzur dəhlizinin açılması uzanacağı təqdirdə Azərbaycanla Türkiyəni birləşdirən yol İran üzərindən keçəcək. Beləliklə, Ermənistan yenə də “oyundankənar vəziyyətdə” qalacaq. İki gün əvvəl Nikol Paşinyan Brüsseldə Avropa Parlamentində çıxışı zamanı Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirən Mehri yolunu açmağa, “tranzit üçün sadələşdirilmiş prosedurlar tətbiq etməyə” hazır olduğunu dedi.

Deyəsən, daşnak-şovinist-revanşistlərin “buzlaqları” əriməyə başlayıb. Dörd gün bundan əvvəl Ermənistan nazirlər kabineti Türkiyə ilə sərhədi açmaq üçün Ankaraya təkliflər zərfi göndərdiyini, növbəti addımın Türkiyədən gözlədiklərini açıqlamışdı. Bəli, İrəvan çoxdan atmalı olduğu addımları atır.

Yeri gəlmişkən, Azərbaycanın Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində atdığı addımlar, eləcə də nəqliyyat və enerji sektorlarında həyata keçirdiyi layihələr, bütövlükdə, bölgənin inkişafına xidmət edir. Bu barədə Azərbaycanın Energetika naziri Pərviz Şahbazov Çində keçirilən 3-cü “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda çıxışında bildirib. Onun sözlərinə görə, bütün bunlar, eləcə də Azərbaycanın 6 neft-qaz kəməri kimi qitələri, dənizləri birləşdirən enerji bağlantıları Çinin meqa-layihəsinin milli təşəbbüslərimizlə birləşməsinin real örnəkləridir. 2030-cu ilədək 7 QVt “yaşıl enerji” güclərinin yaradılması və bunun 5 QVt-nın Xəzər–Avropa İttifaqı və Azərbaycan–Türkiyə–Avropa dəhlizləri ilə ixracı, həmçinin elektrik enerjisinin Mərkəzi Asiyadan ölkəmizə, buradan Avropaya ötürülməsi planları “Bir kəmər, bir yol”u “yaşıl” bağlantılarla zənginləşdirəcək.

İndi növbə İrəvanındır. Sözdə kommunikasiyaların qarşılıqlı açılmasının bütün bölgə üçün faydalı olduğunu söyləyən Paşinyan sanki “Qafqaz evi”nə qoşulmaqdan çəkinir. Guya, daha çox Qərbə inteqrasiya olunmağa çalışır. Amma bu zaman anlamaq istəmir ki, Amerika və Fransa gəlib bölgənin problemlərini həll edə bilməzlər. Birincisi, onlar coğrafi baxımdan uzaqdadırlar. İkincisi, bölgənin aparıcı dövlətləri buna heç cür imkan verməyəcəklər. Azərbaycan da bu variantın əleyhinədir. Açıq-aşkar ermənipərəst mövqedən çıxış edən Paris bu bölgənin hansı problemini həll etməyə qadirdir? Bəli, Cənubi Qafqaz ölkələri vacib məsələləri öz aralarında həll etməlidirlər. Bu halda onların kənar vasitəçilərə ehtiyacı qalmayacaq. Burada Hayastan baş nazirinin narahatlığına səbəb olacaq amil Zəngəzur dəhlizinin açılmasıdır. Fəqət, o, məsələnin həllini uzatdıqca, həmin avtomobil və dəmir yollarının İrandan keçəcəyi ehtimalı daha da artır.

***

Doğrudanmı Hayastanın başbilənləri elə düşünürlər ki, onun qonşuları ilə problemlərini “qoca qitə”dən, yaxud okeanın o tayından gələnlər yoluna qoyacaq? Xeyr, onlar bunun belə olmadığını yaxşı bilirlər. Sadəcə araqarışdıranlar onu qonşuları ilə bir araya gəlib, üz-üzə oturub danışmaqdan, əl-ələ verib əməkdaşlıq etməkdən çəkindirməyə çalışırlar. Bu isə İrəvanın deyil, guya, həmin bədxahların özlərinin mənafeyinə faydalı olacaqmış. Olmayacaq! Ulularımızın sözünü azacıq improvizə edək: yetimə uzaqdan gəl-gəl deyən çox, çörək verən isə qonşu olar.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**siyasi şərhçi**

Müharibədən sonra Cənubi Qafqazda yaranmış mövcud reallığın sabitliyə və iqtisadi inkişafa xidmət etməsi üçün yeni kommunikasiya şəbəkələrini formalaşdırmaq təşəbbüsləri üçtərəfli Bəyanatda da öz əksini tapıb. Nəticə etibarı ilə bir neçə format əmələ gəldi və onların arasında hamının maraqlarını təmin edən və ən faydalısı “3+3” formatıdır. Əslində, Cənubi Qafqaz üçün “üçlər” formatı daha maraqlıdır. Amma “altılıq” modeli hamını bir çətir altına yığmaq cəhdidir. Əgər Ermənistan, həqiqətən, müstəqil olsaydı, bu layihəyə məmnuniyyətlə “hə” deyərdi. Çünki bu proses İrəvanı mövcud coğrafiyada bataqlıqdan çıxartmaqla, iqtisadi cəhətdən yüksəlişinə səbəb olardı. Bu isə hətta revanşist meyilləri qalsa belə, sonrakı mərhələdə iqtisadi sabitliyini formalaşmağa zəmin yaradardı. Ermənistan hakimiyyətinin müstəqil qərarlar vermək iqtidarında olmadığı heç kəsə sirr deyil. Daxildə Rusiya amili, kənardan erməni lobbiçilərin əli ilə İrəvana göstərilən təzyiq onu küncə sıxışdırır.

Gürcüstan isə məlum formatı bölgədə Rusiyanın güclənməsi kimi qəbul etmişdi. Amma iki il əvvəllə müqayisədə Moskva ilə mal dövriyyəsi artan Tbilisinin o vaxt məsələyə qeyri-səmimi yanaşması qənaəti vardı. İndi bu yanaşma dəyişib. Gürcüstan bölgədə baş verəcək böyük proseslərdən kənarda qalmaq niyyətində deyil. Hazırda “3+3” formatının yenidən canlanması üçün heç bir maneə görünmür.

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq**

Əvvəlcə onu qeyd etməliyik ki, hələlik “3+3” formatında Gürcüstan iştirak eləmir. Bu, birinci problemdir. İkincisi Ermənistanla bağlıdır. İrəvan artıq başa düşməyə başlayıb ki, bölgədə təcrid olunmağa başlayıb və Azərbaycan İranla avtomobil yolunun çəkilməsi ilə bağlı razılığa gələndən sonra mövqeyi dəyişir. Nikol Paşinyan məhz bu səbəbdən Avropa Parlamentindəki çıxışında ölkələrarası kommunikasiyaların açılmasına hazır olduqlarını bildirdi. Söhbət elə “3+3” formatından gedir. Bu günə qədər İrəvan bu barədə susurdu, amma indi guya adıçəkilən regional layihədə iştirak etmək istəyir. Açığını desəm, Ermənistanın bu istiqamətdə, deyilən formatda tutarlı addım atacağını gözləmirəm. Hər halda vaxt göstərəcək, yaxın gələcəkdə məlum olacaq. Amma qarşıdakı iki-üç ayda dediyimiz formatda irəliyə doğru ciddi addımın atılacağını söyləmək olmaz. Yəni, həm Gürcüstanın, həm də Ermənistanın bu formata münasibətdə müəyyən tərəddüd və problemləri var. Onların mövqeyində müsbət dəyişikliklər olmalıdır. Əslində, biz də bir qədər gözləməliyik. Şəxsi qənaətimə görə, “3+3” formatı növbəti mərhələdə işə düşməlidir. O mənada ki, İrəvan əvvəlcə bizimlə sülh müqaviləsini imzalasın, ərazi bütövlüyümüzü sənədlə təsdiqləsin və yalnız bundan sonra bu istiqamətdə əməkdaşlıqdan danışmaq olar.

Azərbaycan Bayrağı

(əvvəli 1-ci səhifədə)

Burada, istər-istəməz 1992-ci ilin fevral ayının dəhşətli hadisələri yada düşür. Bəli, 31 il əvvəl Azərbaycan üçün mühüm strateji əhəmiyyət kəsb edən Xocalı şəhərinin sakinləri soyqırımına məruz qalıb, özü yağmalanaraq viranəyə çevriləndə ağdamlı şair dostumuz Zakir Fəxri hüzünlü bir şeir yazmışdı: “Qalmaz belə, qalmaz dünya!” O zaman mərhum atam “Oxx!”-deyə göz yaşını saxlaya bilməmişdi (İnanıram ki, o, dünyanın belə qalmadığını görəndə də eyni hala düşərdi). Həmin sözlərə yazılmış həzin mahnını görkəmli sənətkarımız Zeynəb Xanlarova başda olmaqla, onlarca müğənnimiz ifa etmiş və bizi inandırmışdı ki, dünya belə qalmayacaq.

Bəli, dünya elə qalmadı, Zakir müəllim. Azərbaycan Prezidenti üç il əvvəl başımızın tacı olan Dövlət Bayrağımızı “Sizin Ağdamda” qaldırararkən demişdi ki, biz bu yerləri cənnətə döndərəcəyik. Döndəririk. İndi Ağdama gələnlər cəmi üç ildə görülmüş işlərə heyran olurlar.

Amma o zaman – Ağdamın silahla deyil, diplomatiya ilə işğaldan azad edildiyi günlərdə kimlərsə güman edirdi ki, bizim qələbəmiz hələ tam başa çatmayıb. Çünki o vaxt Azərbaycan Bayrağı hələ Xocalıya və Xankəndiyə qayıtmamışdı. O yerlərdəki Azərbaycan Bayrağının yerində hələ də sarsaq adamların bayraq dediyi murdar əsgi asılmışdı. Yəni “Qalmaz belə, qalmaz dünya” inamı, ümidi, nikbinliyi hələ qüvvədə idi. Gözünüz aydın olsun ki, dünya da elə qalmadı, Azərbaycanın Qələbəsi də tamamlandı, şanlı bayrağımız işğaldan azad edilmiş bütün şəhər və kəndlərimizə də qayıtdı. Mən bilərəkdən “qaytarıldı” demirəm. Çünki gözümdə Azərbaycan Bayrağı da möhtəşəm bir canlıdır. Sanki o Bayraq Şuşada, Xocalıda, Xankəndidə cənab Prezidentlə nə isə danışırdı. Danışmasaydı, dünyanın ən qətiyyətli, iradəli və nüfuzlu siyasətçilərindən olan İlham Əliyev nə üçün onu öpərkən baş əyir, təzim edirdi?

...Bəli, Azərbaycan Prezidenti “Heydər Əliyev İli”nin başa çatmasına iki ay yarım qalmış, özünün dövlət başçısı kimi fəaliyyətə başlamasının iyirminci ildönümü günündə, möhtəşəm Zəfərimizin üçüncü ildönümü, eləcə də, 18 Oktyabr – Dövlət Müstəqilliyimizin Bərpası Günü ərəfəsində xalqımıza heç zaman unudulmayacaq hədiyyələr bəxş etdi. Belə ki, ölkəmizin Qarabağ iqtisadi rayonunda kök salmış separatşı və terrorçu ünsürlərə qarşı aparılmış lokal antiterror əməliyyatlarından bir ay keçməmiş Ali Baş Komandan Azərbaycan Bayrağının bütün yaşayış məntəqələrimizdə ucaldılmasına nail oldu. Həm də bu uğura cənab Prezidentin özü, şəxsən imza atdı. Ağdərə, Əsgəran, Xocalı, Suqovuşan, Xocavənd və Xankəndidə müqəddəs bayrağımızı öz əli ilə ucaltdı.

Bu, elə bir addım oldu ki, səsi dost və müttəfiqimiz olan ölkələrlə yanaşı, Cənubi Qafqazda hansısa maraqlarının təmin edilməsinə çalışan ölkələrdə də əks-səda verdi. Biri bu barədə sevinə-sevinə danışdı, o biri ah-nalə ilə.

“Amerikanın səsi” radiosusu isə özünün xəbər saytında yazdı ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Qarabağ regionunun Xankəndi, Ağdərə, Xocalı şəhərlərində və Əsgəran qəsəbəsində səfərdə olub. Bu, ölkə liderləri tərəfindən son 35 ildə Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazisində öz nəzarətini bərpa etməsindən sonra Qarabağın bu bölgəsinə edilmiş ilk səfərdir.

Dövlət başçımızın Xankəndidə Azərbaycan Bayrağını ucaltması və çıxışı Rusiya media qurumlarının diqqət mərkəzində olub. Məsələn, Rusiya Dövlət Dumasının rəsmi nəşri olan “Parlamentskaya qazeta” xatırladır ki, Azərbaycan Ordusu sentyabrın 19-da antiterror tədbirləri keçirib və nəticədə sentyabrın 28-də qondarma “Dağlıq Qarabağ respublikası”nın buraxılması barədə sənəd imzalanıb. TASS agentliyi isə xatırladır ki, 20 il əvvəl məhz bu gün İlham Əliyev Azərbaycan Prezidenti seçilib. Dövlətimizin başçısının Xankəndidəki çıxışından fikirlərə yer ayıran agentlik qeyd edir ki, Prezident İlham Əliyev 20 il əvvəl xalqa müraciətində Azərbaycan xalqının və dövlətinin maraqlarını daim qoruyacağına söz vermişdi. “Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi”, – deyə dövlətimizin başçısının çıxışından iqtibas gətirilib.

Bu mövzuda yazan xəbər saytlarının hərəsinin məsələyə öz münasibəti var. Məsələn, “NTV” telekanalının əməkdaşları bu barədə tam özünəməxsus ifadə işlədiblər: “Azərbaycan Prezidenti İlham Əliyev respublikanın üçrəngli Bayrağını Qarabağın “paytaxtı”nda ucaldıb”.

Bəli, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizi gəzərək, həm son 35 ilin möhtəşəm ilkinə imza atdı, həm də, rusiyalı həmkarlarımızın dediyi kimi, “Qarabağın paytaxtı”nda da Dövlət Bayrağımızın ucaldılmasına nail oldu. Onu da əlavə edək ki, həm cənab Prezident, həm də 15 Oktyabr uğurumuz haqqında danışan istənilən azərbaycanlı ilk növbədə şəhidlərimizin ruhuna ehtiramı dilə gətirirlər. Hamı etiraf edir ki, biz bu qələbələrə Prezidentin qətiyyəti, siyasi iradəsi və sərkərdə məharəti ilə yanaşı, həm də şəhid və qazilərimizin peşəkarlığı, mərdanəliyi sayəsində nail olmuşuq.

Allah şəhidlərimizə rəhmət eləsin! Qazilərimizə isə şəfa diləyirik!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# “Şuşada sən qonduğun daşa Pir deyəcəyəm”



**Ramiz Qusarçaylının “Azərbaycan Bayrağı” şeirindən**

**Cəngidə cövlan yerim,**
**cövlanda can yerimsən,**
**Barışda gül çələngim,**
**savaşda qan yerimsən,**
**Sən mənim and yerimsən,**
**mənim iman yerimsən,**
**Dalğalı ləngərlərin**
**yelpiklənən yarpağı, –**
**Azərbaycan bayrağı!**

**Sənsən Azadlıq eşqim,**
**sənsən Hürr, – deyəcəyəm,**
**Ən son nəfəsimdə də**
**sənə şeir deyəcəyəm,**
**Şuşada sən qonduğun**
**daşa pir deyəcəyəm,**
**Çəkəcəyəm gözümə**
**kölgən düşən torpağı**
**Azərbaycan bayrağı!**
**Azərbaycan bayrağı!**

# Paşinyanın Avropa Parlamenti tribunası – alqışdan illüziyaya

## Nikolun anti-Azərbaycan çıxışı və Avropaya yanaşmasında riyakarlıq

**Ermənistan baş naziri Nikol Paşinyanın Avropa Parlamentindəki çıxışından sonra salonu sürəkli alqışlar bürüdü. Əvvəlcə sırf alqış məsələsinə Ermənistan daxilindəki reaksiyalardan biri maraqlı və məxsusidir. Politoloq Alen Gevondyan özünün sosial şəbəkə hesabında yazıb ki, avropalılar Nikolu alqışlayanda çox səmimi idilər. Çünki öz ölkələrini qitənin və ABŞ-ın maraqları naminə qurban verən şəxsə başqa cür münasibət göstərə bilməzdilər.**



Bəli, Paşinyan Avropa Parlamentindəki çıxışında bir çox şeyləri qurban verdi. Ümumən, erməni baş nazirin nitqindəki iki əsas istiqamətdən söz açacağıq. Həmin istiqamətlərdən birincisi demokratiya, ikincisi, ən başlıcası isə Azərbaycandır. Onu da deyək ki, hər iki istiqamət bir-birilə kifayət qədər bağlı idi. Hər halda, Paşinyanın çıxış üçün yetərincə zəhmət çəkdiyi görünürdü. Əlbəttə, buna zəhmət demək mümkündürsə.

***

Demokratiyadan başlayaq. Nikol bütün beynəlxalq tribunalarda “Ermənistan demokratiyası”nı gözə soxmaqla məşğuldur. Yenə də eyni amplusında idi. Bu yolla, o, ölkəsini Cənubi Qafqazda “demokratiya qalası” kimi qələmə verir. İstəyir ki, üstün obraz formalaşdırsın. İndi də 2020-ci ildən sonra demokratiyanın ölkəsində təhlükəli anlar yaşadığını deyir. Ancaq fərqinə varmır ki, hazırkı durum haqqında söz açdığımız “üstün obraza” arxalanmasından qaynaqlanıb. Söhbət kortəbii arxalanmaqdan gedir. 2019-cu ildəki kimi. Nikol “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verib Azərbaycanla danışıqların məzmununu heçə sayanda əmin idi ki, dünyada kimlərsə ona kömək əlini uzadacaq. Ancaq, bu, baş vermədi. “Demokratiyanın qladiatoru” 44 günlük müharibədə, bir növ, yoluq toyuğa çevrildi. Halbuki, hadisələr belə bir məcraya çatmaya bilərdi. Axı, Nikol əvvəlkilərdən fərqli olaraq, hakimiyyətə Qarabağ kartı üzərində gəlməmişdi. Ancaq, o, məhz həmin kartla hərəkət etmək qərarına gəldi. Unutdu ki, demokratiya həm də başqa ölkənin torpaqlarının işğalından uzaq durmaqdır. Deməli, Nikol demokratiyaya zor tətbiq etmiş oldu və davranışının cəzasını çəkməkdədir. Ən qəribəsi isə budur ki, o, vəziyyətdən düzgün nəticə çıxarmır.

Ümumən, Paşinyanın AP-də demokratiya ilə bağlı söylədikləri ucuz populizmdən o yana keçmir. O, ölkəsində söz, sərbəst toplaşmaq kimi fundamental azadlıqlara hörmətlə yanaşıldığından dəm vurur. Hərçənd, durum heç də təsvir etdiyi kimi deyil. Ermənistanda polis zorakılığı və təqiblər tam adiləşmiş xarakterə malikdir və beynəlxalq ictimaiyyət məsələyə nəinki reaksiya vermir, heç tükünü də tərpətmir. Heç şübhəsiz, Azərbaycanda İrəvan küçələrində baş verən zorakılıqların bir faizinə oxşar nə isə yaşansaydı, Nikolun boğazdan yuxarı zoğallamalarını alqışlarla dinləyənlər bəyanatı bəyanat dalınca sıralamışdılar. İndi onlar əl çalırlar.

Hazırda Nikolun idarəçiliyi proletariatın lideri Leninin bolşevizm yanaşmasından o yana keçmir. Sadəcə olaraq, görünür, zaman dəyişib. Ola bilər, Lenini qəbul etməyən avropalılar Nikolu saqqalına görə Karl Marksa oxşadırlar. Özləri bilər və özləri bildikləri üçün Paşinyan rahatca çıxıb demokratiya ilə manipulyasiya edir və onun bu “tərzi” alqışlarla qarşılanır. Hər halda, ortada böyük riyakarlıq var. Riyakarlıq isə öz növbəsində, ikili standartları doğurur. Daha doğrusu, riyakarlıq Qərbin ikili standartlar siyasətinin tərkib hissəsidir.

Manipulyasiydan söz düşmüşkən, Paşinyanın demokratiya musiqisinin populizm janrına köklənmiş zəngulələrindən, habelə ölkəsinə qarşı təhlükələrdən söz açarkən, söhbəti Azərbaycan üzərinə gətirməsi son dərəcə iyrənc təsir bağışlayır. Təsəvvür edin ki, o, 2021-ci ildə Ermənistandakı bəzi qüvvələrin onun hakimiyyətini devirmək niyyətlərindən danışır, bildirir ki, belələrini sıradan çıxarmaq üçün növbədənkənar parlament seçkisinə getdi, özü və komandası istefa verdi və guya, tam bu anda Azərbaycan suveren Ermənistanın torpaqlarına hücum çəkdi: “Parlamentin de-yure buraxılmasının qüvvəyə minməsindən iki gün sonra, 2021-ci il mayın 12-də Azərbaycan qoşunları Ermənistanla sərhədi pozaraq, sərhəd xəttinin 100 kilometrlik hissəsinə 4 kilometr dərinlikdə Ermənistanın suveren ərazisinə daxil oldular”.

Əlbəttə, Paşinyan gözünün içinə qədər yalan deyir. Suveren Ermənistanın ərazisinə heç bir qəsb olmayıb. Həm də ona görə ki, ərazinin haradan başlayıb, harada bitdiyi məlum deyil. Bunu reallaşdırmağa imkan verməyən isə İrəvanın özü olub. Əvvəlki məsələləri bir kənara qoyaq, Ermənistan 1991-ci ildən, yəni SSRİ-nin süqutundan sonra Azərbaycana qarşı ərazi iddiası irəli sürüb. Nəticədə torpaqlarımız işğala məruz qalıb. Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” deyimini nəzərə alsaq, həm Qarabağ, həm də digər işğal olunmuş ərazilər Ermənistan idisə, o zaman onun indi suveren Ermənistan ərazisindən dəm vurmasında heç bir məntiq yoxdur. Sual olunur: Nə üçün, məsələn, Gürcüstanla Azərbaycan arasında problem yoxdur? Ona görə ki, hər iki ölkə 1991-ci ildən sonra normal şəkildə danışıqlar masası arxasına əyləşdi, sərhəd xəttini müəyyənləşdirdi. Nikol isə normal yanaşmadan uzaqdır...

***

Bəli, Paşinyan 2021-ci ildə seçkiyə ona görə getdi ki, qalib gələcəyinə əminliyi vardı. Yəni, o, çox yaxşı bilirdi ki, xalq ona qarşı çıxan qüvvələrə nifrət bəsləyir. Axı, sıravi ermənilər həmin qüvvələrin illərlə törətdikləri özbaşınalıqlardan xəbərdar idilər. Onlar başqa seçimə malik deyildilər. Müharibə cəlladları ilə müharibə rüsvayçıları arasında ikincilərə üstünlük verdilər. Ola bilər, düşündülər ki, Nikol və komandası daha anti-Azərbaycan ritorikasına üstünlük verməyəcək. Lakin bunun əksi yaşandı. Ermənistan iqtidarı Azərbaycana münasibətdə bəyənmədiyi müxalifətin yolu ilə getmək qərarına gəldi. Deməli, Nikolun pafosundakı “xalq demokratiyanı qorudu” məntiqi sabun köpüyündən başqa bir şey deyil. Xalq yalnız öz başını qorumaq fikrində idi. Çünki müharibədəki biabırçılığı və fəlakəti görmüşdü.

Nikol bildirir ki, 2021-ci ildə Azərbaycanın eskalasiyası baş verəndə Ermənistanın təhlükəsizlik sistemi sayılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və ölkə qarşısında təhlükəsizlik sahəsində ikitərəfli öhdəlikləri olan dövlətlər heç bir köməklik göstərmədilər. Göründüyü kimi, baş nazir AP tribunasından da özünün anti-Rusiya dəst-xəttinə sadiqliyini göstərir. O, həmçinin deyir ki, nəticə etibarilə Ermənistan demokratiyası güclü zərbələr aldı və almaqda davam edir. Zərbə budur ki, ölkəyə qarşı, guya, xarici təcavüz var. Bundan başqa, xarici qüvvələr Ermənistanın suverenliyinə qarşı hibrid texnologiyaları işə salıblar və daxildəki sabitliyi pozmaq niyyəti güdürlər.

Nikolun yarımçıq təfəkkür tərzinə və çiy məntiqinə görə, sən demə Azərbaycanın öz konstitusion quruluşunun bərpası üçün reallaşdırdığı lokal xarakterli antiterror tədbirləri Ermənistan demokratiyasını sarsıtmaq üçün imiş. Qarabağdan erməni köçü də, həmçinin. Ən əsası isə müttəfiqləri Ermənistan hakimiyyətinin devrilməsi naminə ictimai çağırışlar səsləndiriblərmiş. Burada da erməni baş nazirin əsas hədəfinin Rusiya olduğu aşkardır.

“Lakin Ermənistan Respublikasının xalqı müstəqilliyi, suverenliyi, demokratiyası naminə mitinq keçirdi və dövlətimizə qarşı daha bir sui-qəsd iflasa uğradı. Ermənistan hökuməti və xalqı Qarabağda etnik təmizləmənin qurbanı olmuş 100 mindən çox erməninin sığınacaqlarda qəbulu və onlara sığınacaq verilməsi problemini həll etmək üçün bir araya gəldi və biz bu vəzifəni şərəflə yerinə yetirdik”, – deyən N.Paşinyan Qarabağ ermənilərinin yüksək səviyyədə qəbulundan və bu kimi digər məsələlərdən söz açmaqla konret məqsəd güdür – Avropadan sistemli və məqsədyönlü vəsait axınına nail olmaq. Ən maraqlısı isə budur ki, o, məsələni həm də Ermənistan demokratiyasının qorunması kontekstində izah edir.

Erməni baş nazir çıxışında daha bir maraqlı məqama toxunur. Deyir ki, bəziləri Qarabağ ermənilərinin niyə kütləvi şəkildə evlərini tərk etdiklərini başa düşmürlər və ümumiyyətlə, belə bir sualın qoyulması sinizmdir. Qeyd edək ki, Nikol bir müddət əvvəl də mövzuya azacıq fərqli formada toxunmuş və bildirmişdi ki, müəyyən xarici dairələr Ermənistanın tez bir zamanda yüz minədək köçkünü qarşılaya bilməsindən təəccüblənib və məsələnin əvvəlcədən planlaşdırıldığı şübhəsinə düşüblər. Görünür, elə həmin qüvvələr Nikola əhalinin Qarabağı tərk etməsinə ehtiyacın duyulmadığını da bildiriblər. İkinci isə o qədər əsəbləşib ki, AP-dəki çıxışında bu barədə söz açmağa qərar verib.

Paşinyan Qarabağdakı erməni köçünə görə Rusiya sülhməramlılarını ittiham etməyi də unutmayıb. Bildirib ki, Qarabağdakı Rusiya sülhməramlı kontingentinin fəaliyyətsizliyi səbəbindən 44 günlük müharibə dövründə Qarabağdan çıxmış 20 min şəxs geri qayıda bilməyib. Hər halda, bu, təzə ittiham predmetidir. Çox güman ki, Nikol öz iqtidarının aylarla apardığı təbliğatın yalan mahiyyətini malalamaq istəyir. Axı təbliğatda bildirilirdi ki, guya, Azərbaycanın Laçın yolunu bağlaması nəticəsində 120 min erməni humanitar fəlakətlə üzləşib. Bəs, necə oldu ki, Qarabağdan köçənlərin sayı 120 minə çatmadı? Paşinyan haqqında söz açdığı 20 minlik sayla öz aləmində mənzərəyə aydınlıq gətirir. Eyni zamanda xaricdən alacağı yardımı 120 min üzərində tənzimləmək fikrindədir. Qeyd edək ki, 44 günlük müharibədən sonra Rusiya sülhməramlı qüvvələrinin köməyi ilə bölgəyə 50 mindən bir az artıq erməni qayıtmışdısa və tutalım 20 min qayıda bilməmişdisə, indi də deyilirsə ki, 100 min adam evini tərk edib, deməli, yenə 120 min rəqəminin yanlışlığı meydana çıxır...

Əlbəttə, N.Paşinyanın böyük hədəfi Azərbaycandır. O deyir ki, Qarabağın erməni əhalisinin bölgəni tərk etməsinin səbəbi Bakının aylardır apardığı təcrid, etnik təmizləmə siyasətidir. Bütün bunlardan sonra Nikol hələ Cənubi Qafqazda sülhdən dəm vurur. Aydındır ki, onun sülh mövzusundan danışması da manipulyasiyadan başqa bir şey deyil və yazımızın bundan sonrakı bölümündə diqqəti Paşinyanın sülh imitasiyasına yönəldəcəyik. Nəzərə alaq ki, bu imitasiya onun anti-Azərbaycan ritorikasında mühüm halqanı təşkil edir.

***

N.Paşinyan Azərbaycan – Ermənistan münasibətlərinin hazırkı axarından söz açarkən ritorik suallar səsləndirir. Birincisi, sülh mümkündürmü? İkincisi, əgər mümküdürsə, necə? Diqqət yetirək, erməni baş nazir suallara birmənalı cavab vermir. Yaxşı bilir ki, təklif etdikləri sülh gündəliyi baxımından düzgün deyil. Ona görə ki, hər şeyi bir kənara qoyub birbaşa Avropa Siyasi Birliyini bu il oktyabrın 5-də Qranadada keçirilmiş Zirvə toplantısına köklənir. Həmin toplantı çərçivəsində özünün, Fransa prezidenti Emmanuel Makronun, Almaniya Kansleri Olaf Şoltsun və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin imzaladığı sənədə fokuslanır. Onun fikrincə, Bakı ilə İrəvan araslnda sülh olacaqsa, durum məhz bu sənəd əsasında ərsəyə gəlməlidir.

Bəli, Nikol Paşinyan deyir ki, Qranadada faktiki olaraq 2022-ci ilin Praqa və 2023-cü ilin mayındakı Brüssel samitlərində əldə edilmiş nəticələr təsdiqlənib. Yəni, Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüklərini tanıyıblar. O, məsələ barədə danışarkən, bir çox digər mətləblərə də toxunur. SSRİ-nin dağılmasından, 1991-ci ilin Alma-Ata Bəyannaməsində söz açır ki, bütün bunları əvvəllər də dəfələrlə vurğulayıb. Belədə sual yaranır: Nəyə görə Paşinyan Praqa və Brüssel sammitini yox, Qranadadakı sənədlərin prinsipial mahiyyəti üzərində dayanır? Səbəb çox sadədir. Bu haqda danışmazdan əvvəl isə bildirək ki, Qranadada imzalanmış sənədlərdə Azərbaycanın imzası yoxdur. Yəni, elə buradan da demək olar ki, Nikolun onları əsas götürməsi düzgün deyil. Erməni baş nazir Azərbaycan Prezidenti İlham Əliyevin də hansı səbəbdən Qranadaya getmədiyini gözəl bilir. Bilir ki, dövlətimizin başçısı ermənipərəst mövqe tutan Fransaya qarşılıq Türkiyənin tərəf kimi Azərbaycanın yanında olmasını istəyirdi və buna razılıq verilmədiyindən İspaniyaya yollanmadı. Deməli, Nikol Azərbaycanın dövlət başçısının Qranadaya getməkdən imtinasını Bakının sülhdən yayınması kimi qələmə verə bilməz. Ancaq verir və bunun özü də aşkar qeyri-səmimilikdir. Digər yandan, ölkəmiz sülh gündəliyinə sadiqliyini bəyan edib. Ancaq hansı gündəliyə?

AP-dəki çıxışında sülhün ən müxtəlif detalları ətrafında gəzişmələr edən Paşinyan Qranadada başlıca olaraq nəyin imzalandığından söz açmadı. Başqa sözlə desək, o, sülh yolçuluğu baxımından ehkamlaşdırdığı sənədin əsl mahiyyəti üzərinə gəlmədi. Ancaq bir müddət əvvəl ölkəsinin İctimai televiziyasına müsahbəsində bu barədə kifayət qədər ətraflı danışmışdı. Məsələn, bildirmişdi ki, Qranadadakı dördtərəfli görüşün əhəmiyyəti iki mühüm bəyanatla səciyyələndirilə bilər. Onun sözlərinə görə, ilk bəyanatı prezident Makron, Kansler Şolts, Ş.Mişel və onun özü imzalayıblar. Sənəd Aİ-nin Ermənistanla münasibətlərin dərinləşməsinə dair konsensusunu vurğulayır. Avropa Komissiyasının sədri Ursula von der Lyayen tərəfindən də imzalanmış ikinci bəyanatdan belə anlaşılır ki, Cənubi Qafqaz regionunda sülhün başlıca sütunlarına Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün qarşılıqlı tanınması, 1991-ci il Alma-Ata sazişi əsasında sərhədlərin delimitasiyası, suverenliyə hörmətlə yanaşılmaqla, regional kommunikasiyaların açılması daxildir. Əsas məsələlərdən biri də budur ki, ikinci sənəddə Qarabağa qarşı güc tətbiqi pislənilib, region əhalisinin məcburi köçürüldüyü vurğulanıb, həmçinin humanitar vəziyyətin idarə olunmasında Aİ və ABŞ-ın Ermənistanı dəstəkləməyə hazır olduğu bildirilib. Bəyanatda, eyni zamanda, Qarabağ ermənilərinin ilkin şərt olmadan geri qayıtmaq hüququ da diqqətə çatdırılıb. Paşinyanın sözlərinə görə, sənədin məxsusiliyi onun dördtərəfliliyidir, lakin Azərbaycanın imzasının olmaması ilin sonuna qədər sülh sazişinin imzalanması ehtimalı ilə bağlı suallar yaradır. Baş nazir bildirib ki, Bakı bu bəyanatı imzalasaydı, sülh sazişi ehtimalı 70 faizdən çox olardı.

Ermənistanın baş nazirinin müsahibəsində bildirdiklərindən belə qənaətə gəlmək mümkün idi ki, Qranadada Azərbaycana qarşı tam bir oyun qurulmuşdu. Hər halda, bölgənin erməni əhalisinin məcburən köçürüldüyünün vurğulanmasını, üstəlik, məsələnin imza ilə təsdiqlənməsini başqa cür qiymətləndirmək mümkünsüzdür. Belə çıxır ki, ölkəmizin Qarabağ erməniləri ilə bağlı konstitusyon əsasda verdiyi təminatlar nəzərə alınmır.

Bəli, Qranadada imzalanmış sənəd ölkəmizin ərazi bütövlüyünü açıq şəkildə şübhələndirir. Birincisi, Bakı Qarabağ ermənilərinə zor tətbiq etməyib. İkincisi, bu əhali kateqoriyasının ərazidən çıxmasını istəməyib, əksinə qalmasında maraqlı olduğunu dəfələrlə vurğulayıb. Belə bir məqamda erməni köçkünlərin geri qayıtmaq hüququnun hansısa sənəddə yer alması məcburi köçürülmə halının mövcudluğunun təsdiqlənməsi kimi interpretasiya oluna bilər ki, Azərbaycanın məsələnin qoyuluşu ilə əsla razılaşmayacağı şübhəsizdir. Deməli, bu qənaətə gəlmək olar ki, erməni sakinlərin tez bir zamanda Qarabağdan çıxarılmaları məqsədli imiş və bölgə üzrə avantürist planların gündəmdə saxlanılmasına xidmət edirmiş.

Qarabağ ermənilərinin əraziyə qayıtmaq hüquqlarına gəldikdə, son günlər BMT sülhməramlıları məsələsi üzərində dayanılır. Ş.Mişel də bildirib ki, əgər Azərbaycan məcburi köçürülmənin olmadığını sübuta yetirmək istəyirsə, qurumun sülhməramlı missiyasının əraziyə gəlməsinə razılıq verməlidir. Yəni, yalnız bu şərtlə Qarabağ erməniləri geri qayıda, onların hüquqları təmin oluna bilər. Ortaya qəribə məntiq çıxır. Deməli, Qarabağın erməni sakinlərinin geri qayıtmaq hüququ var və bu hüququn reallaşmasına təminatçı BMT sülhməramlılarıdır. O zaman sual olunur: Bəs, Azərbaycanın suverenliyi? Bəli, Nikol və avropalılar ölkəmizin ərazi bütövlüyünü tanıdıqlarını bildirsələr də, bu tanınmanı şübhələndirəcək məqamları də dövriyyəyə buraxırlar.

Deməli, Paşinyan AP-dəki çıxışında buna görə Qranada Sammitinin nəticələrini prinspial olaraq qəbul etdiyini bildirir. Yeri gəlmişkən, o, Ermənistanın İctimai televiziyasına müsahibəsində onu da bildirmişdi ki, Qranada razılaşmasının hansısa formada korrektə olunmasına razı deyil. Belə nəticəyə gəlmək mümkündür ki, Ermənistan yenə məkrindən qalmır və Azərbaycanla münasibətlər baxımından konstruktiv mövqe tutmur. Bu isə qarşıda ehtimal edilən Brüssel görüşünün sülh yolundakı gözləntisini heçə endirir.

***

Sonda bir daha Paşinyanın AP-də alqışlanması məsələsinin üzərinə gələk. Əslində, bu alqışların mahiyyətindəki bir çürüklüyü əvvəldə vurğuladıq. İkinci çürüklük isə qurumun timsalında ümumən Avropanın və Qərbin ikiüzlülüyüdür. Əgər bu ikiüzlülük olmasaydı, hazırda Azərbaycan və Ermənistan arasındakı münasibətlərdə nəzərəçarpacaq irəliləyiş qeydə alınardı. Avropa elə davranır ki, sanki Ermənistan onun balasıdır. Bu yerdə yada meymunun çox istədiyindən öz balasını yeməsi məsəli düşür.

Deyə bilmərik, əvvəldə fikirlərini diqqətə çatdırdığımız erməni politoloq Alen Gevondyan haqqında söz açdığımız məsəldən xəbərdardır, ya yox. Ancaq ortada olan mənzərə Avropanın alqışlarla Paşinyanı qurban, daha dəqiq ifadə etsək, yemlik heyvan kimi bəslədiyinin nəticəsidir. İndiki durumda Nikolun “yemi” illüziyadır. AP-dəki çıxışından sonra qazandığı alqışlar ona ən azı növbəti Brüssel raundunadək illüziya verdi. Əlbəttə, illüziyanın sözügedən raundun gerçəkləşməsinə mane olması da mümkündür.

***Ə.CAHANGİROĞLU***
***XQ***



# “Heydər Əliyev–İlham Əliyev doktrinası” və tarixi analogiyalar

### Birinci yazı

**Azərbaycan Ordusunun 19–20 sentyabr antiterror tədbirlərindən sonra nəinki, ölkəmizin, bütün Cənubi Qafqazın geosiyasi mənzərəsi əsaslı şəkildə dəyişdi. Bununla da, “Qarabağ ermənilərі məsələsi” regionun və millətlərin siyasi tarixinin neqativ katalizatoru rolunu oynamaq imkanından məhrum oldu. Süni yaradılmış “erməni məsələsi” regionun siyasi proseslərində 200 illik aparıcı rolunu, demək olar ki, itirdi.**

Son vaxtlar mütəxəssislər arasında “Belə bir hadisə necə baş verdi?”, “Buna hansı proseslər səbəb oldu?” kimi baş verməsi mümkünsüz hesab olunan, gözlənilməyən hadisələrə dair suallar tez-tez eşidilir.

### Bu necə oldu ki, baş verdi?

Son üç ildə Azərbaycan–Ermənistan qarşıdurmasında baş verənlərin dərk edilməsi baxımından bu sual daha çox səslənir. Ona görə ki, 44 günlük müharibənin və antiterror tədbirlərin yekunları bütün gözləntiləri aşmış nəticələrdir.

Tarixdə buna oxşar hadisələr olub. Məsələn, necə oldu ki, 1870-ci ildə Prussiya ordusu silahlanmada daha üstün Fransa ordusunu məğlub etdi və hətta imperator III Napoleonu əsir aldı? Polşada, 1989-cu ildə “Həmrəylik” həmkarlar ittifaqı kommunist idarəçiliyinə necə son qoya bildi? Necə oldu ki, ikiyə parçalanmış Almaniya 1990-cı ildə birləşə bildi? Axı, birləşmənin əleyhinə olan çox güclü qüvvələr var idi. Bütün bunlar öz dövrləri üçün gözlənilməz hadisələr idi.

Əgər, hadisələrin nəticələri bütün şərtləri və gözləntiləri aşırdısa, o zaman mütəxəssislər insan faktorunu, subyektiv amilləri araşdıraraq, bu məsələyə aydınlıq gətirməyə çalışırlar. Məsələn, nə üçün III Napoleon müharibəyə tam hazır olmadığı halda ehtiyatı əldən verib hərbi islahatları başa çatdırmış Prussiya ilə müharibəyə girdi? Bismark buna onu necə təhrik edə bildi? ABŞ və Böyük Britaniyaya sərfəli olmadığı halda nə üçün R.Reyqan və böyük Corc Buş Marqaret Tetçeri dilə tuturdu ki, Almaniyanın birləşməsinə razılıq versin? Bu suallara cavabların tapılması, araşdırılan hadisələrin baş verdiyi dövrdə liderlərin, ayrı-ayrı iştirakçıların, bir sözlə, subyektiv faktorların rolunu, hərəkətlərini və məqsədlərini, onların fəaliyyətinin əhəmiyyətini, xalqların mədəni spesifikliyini öyrənməyi tələb edir.

### Şəxsiyyət amili

Tarixdə şəxsiyyətin rolu haqqında diskussiyalarda məsələyə əsasən 3 yanaşma olur: 1. Şəxsiyyətin rolu aparıcıdır; 2. Subyektiv faktorun rolu minimumdur, əsas obyektiv şərtlərin mövcudluğudur; 3. Obyektiv və subyektiv faktorların rolu 50-nin 50-yə nisbətində, yarıbayarıdır. Yəni, əlverişli tarixi şəraitdə güclü şəxsiyyətin iradəsi üst-üstə düşdükdə uğur qazanılır.

Bu diskussiyada üçüncü variantın tərəfdarları əksəriyyət təşkil etsə də, kontekstdən asılı olaraq faktorların xüsusi çəkisi dəyişə bilər. Məsələn, əgər tarixi prosesin katalizatoru müharibə amilidirsə, yəni, tarixin gedişi müharibə nəticəsində dəyişirsə, başqa sözlə, bütöv bir tarixi dövrün sona çatmasına ən radikal addım olan müharibə təkan verib səbəb olursa, burada şəxsiyyətin rolu, subyektiv faktorlar obyektiv faktorları üstələyə bilir. Ümumiyyətlə, müharibə subyektiv faktordan asılı olan tarixi hadisələr sırasında birinci yerdədir.

### Azərbaycanın gözləntiləri aşan uğuru

Sual olunur: Postsovet məkanında eyni vaxtda alovlanmış 4 münaqişə ocağından niyə məhz Qarabağ münaqişəsini “təmiz qələbə” ilə başa çatdırmaq Azərbaycana nəsib oldu? Azərbaycan nəinki, işğal olunmuş ərazilərini azad edə bildi, hətta separatizmin kökünü kəsməyə, separatçıları, hərbi cinayətkarları həbs etməyə nail oldu. Axı, 44 günlük savaşdan öncəki proqnozlar bu nəticələri nəzərdə tutmurdu. Odur ki, yuxarıda qeyd etdiyimiz nəzəri konsepsiyaya uyğun olaraq, cavabı obyektiv şərtlərlə yanaşı, şəxsiyyətlərin rolunda, subyektiv faktorlarda və yürüdülən siyasətin özəlliklərində axtarmağa ehtiyac var.

Vəziyyəti tam təsəvvür etmək üçün tarixdəki analoji proseslərdən nümunələr gətirmək və müqayisələr aparmağa ehtiyac var.

Bu gün biz Azərbaycan tarixinin yeni mərhələsinə keçid dövrünü yaşayırıq. Əsas təzahürü 30 illik işğal olan geosiyasi böhran dövründən yeni, daha çox təhlükəsizlik, siyasi sabitlik, milli və regional inkişaf vəd edən geosiyasi reallığa keçid prosesinin içərisindəyik. Otuz illik geosiyasi böhran dövrünü necə keçirdiyimiz barədə informasiya, biliklər hələ köhnəlməyib və bundan çox yazılıb. Ancaq, bununla belə geosiyasi böhran dövründə yürüdülmüş siyasəti həm də tarixi-müqayisə kontekstində təhlil edib gələcək nəsillərə ötürmək vacibdir.

Azərbaycanda 1993-2020-cü illər ərzində aparılmış siyasətin prinsiplərinə oxşar yanaşmaların fərqli tarixlərdə və fərqli geosiyasi reallıqlarda, müxtəlif siyasətçi və hökumətlər tərəfindən tətbiqinin müqayisəli təhlili göstərir ki, artıq reallıqda Azərbaycan tarixinin sınağından çıxmış bu siyasət fərqli coğrafiyalarda və dövrlərdə də öz bəhrəsini verib.

### Tarixi paralellər: geosiyasi oxşarlıqlar və fərqlər

**Höte: “Nəzəriyyə qupqurudur, ay dostum, amma həyat ağacı yaşıllığa qərq olub”.**

**Mark Fabi Kvintilian: “Nəzəriyyəsiz təcrübə təcrübəsiz nəzəriyyədən daha qiymətlidir”.**

İkinci dünya müharibəsinin gedişində Finlandiyanın SSRİ-yə məğlubiyyətindən sonra Helsinkinin onilliklərlə yürütdüyü, prezidentlər Yuho Kusti Paasikivi (1946-56) və Urho Kaleva Kekkonenin (1956-82) adları ilə tarixə düşmüş **“Paasikivi-Kekkonen doktrinası”nın** tarixi təcrübəsi Azərbaycanın 28 il ərzində yürütdüyü siyasətin təməl prinsiplərinin doğruluğunu təsdiqləyir.

İkinci dünya müharibəsindən sonra ikiyə bölünmüş Almaniyada K.Adenauer və V. Brandtın realist siyasətinin prinsipləri – Avropanı iqtisadi əsaslarda birləşdirmək, “mövcud reallıqları tanımaq” və “real şərtlərdən çıxış etmək”, 45 il ərzində addım-addım, səbirlə birləşməyə doğru aparan siyasət xətti də Azərbaycanın 28 il ərzində tətbiq etdiyi baza prinsiplərinin oxşarıdır.

Geosiyasi vəziyyətinə görə, Azərbaycanın XVII əsr alman knyazlıqları, XVIII-XIX əsrlərin Prussiyası, XX əsrin Almaniyası ilə oxşarlığını nəzərə alaraq, bəzi paralellərə nəzər salaq. Onlar da Azərbaycan kimi çoxsaylı dövlətlərlə əhatə olunmuşdular, Prussiyanı əhatə edən ölkələrdən ikisi – Fransa və Avstriya isə hətta güclü imperiyalar idi. Alman dövlətlərinin tarixi təcrübəsi göstərir ki, çoxsaylı dövlətlərin əhatəsində olmaq əlverişli iqtisadi və ticari imkanlar açdığı halda, qüvvələr nisbətini öz xeyrinə dəyişməyi nəzərdə tutan hərbi planlar üçün çox təhlükəlidir və dərhal bütün qonşuları ona qarşı birləşməyə sövq edir. Belə bir “kontinent daxili dövlət” olaraq Almaniyanın tarixində 2 uğurlu, 3 fəlakətli dövr təcrübəsi var. Uğurlu dövrlər Prussiya Kralı Böyük Fridrix və Prussiyanın əfsanəvi Kansleri O.Bismarkın adı ilə bağlıdır. Uğursuz dövrlər isə Habsburqların başladığı, Almaniyanın əhalisinin yarısını itirdiyi Otuzillik müharibə (1618-1648), 1-ci və 2-ci Dünya müharibələridir.

Habsburqlar 1618-ci ildə, Birinci Vilhelm 1914-cü ildə, Hitler isə 1939-cu ildə çoxsaylı ölkələrlə əhatələnmiş “kontinent daxili dövlət” olmanın şərtlərini doğru qiymətləndirə, qüvvələr nisbətinin dəyişməsini gözləyə, sərfəli ittifaqlar yarada bilmədilər, qüvvələr nisbətini özləri, birtərəfli qaydada dəyişməyə qalxdılar. Hər 3 müharibə almanlar üçün fəlakətlə nəticələndi.

Əksinə, eyni coğrafiyada Böyük Fridrix 1756-63-cü illərdə Yeddiillik müharibədən qalib çıxıb Prussiyanı xeyli gücləndirdi. O.Bismark isə Avstriya və Fransa ilə müharibələri Prussiyanın xeyrinə bitirərək Almaniyanın birləşdirilməsinə nail oldu.

O.Bismark və Böyük Fridrix Almaniyanın ikisi böyük və daha güclü olmaqla çoxsaylı dövlətlərin əhatəsində olduğunu doğru hesablayaraq şərtləri birbaşa dəyişməyə təşəbbüs etmir, qüvvələr nisbətinin başqalarının təşəbbüsü ilə dəyişdiyi məqamı gözləyə bilir, başqa dövlətlər arasında ziddiyyətlərdən yararlanır, uğurlu ittifaqlar qurmaq məharəti nümayiş etdirirdilər. Habsburqlar və Almaniyanın 1-ci və 2-ci Dünya müharibələrini başladan liderləri isə əlverişli şərtlərin olmadığı zamanda təşəbbüs göstərərək şərtləri dəyişməyə çalışdılar və əksəriyyəti özlərinə qarşı birləşməyə təhrik etdilər.

Bu tarixi nümunədə oxşar geosiyasi şərtlər altında olan iki fərqli regionda “Heydər Əliyev–İlham Əliyev doktrinası”nın baza prinsipləri ilə “Bismark və Böyük Fridrix siyasəti”nin prinsipləri oxşarlıq təşkil edir. 2020-2023-cü illərin hərbi-siyasi, diplomatik uğurlarının səbəbi də elə budur. Deməli, artıq şübhə yoxdur ki, Prezident İlham Əliyev ötən 20 ildə təndqidçilər tərəfindən tələsdirildiyi kimi şərtlər yetişməmiş, vaxtından əvvəl hücum əmrini verməmiş olsaydı, Azərbaycan Almaniyanın otuzillik müharibə və 1-ci və 2-ci Dünya savaşlarından sonrakı və yaxud da Finlandiyanın 1940-cı ildəki vəziyyətinə düşə bilərdi. Bu müqayisə bizə imkan verir ki, rasional siyasət nəticəsində hansı fəlakətlərdən qurtulduğumuzu da təsəvvür edə bilək.

**Daha bir nümunə Yaponiyadır.** 215 illik “özünütəcrid siyasəti”nə son qoymaq məcburiyyətində qalan, Qərb dövlətləri ilə yaponların “alçaldıcı” hesab etdikləri 1858-ci il sazişini imzalamağa məcbur olmuş Yaponiya dəyişikliyə içəridən, özünü islahatdan başlamışdı. Yeni geosiyasi reallıqları nəzərə alaraq ölkədə köklü islahatlar apardıqdan sonra vəziyyət dəyişdi və təqribən 40 ildən sonra Yaponiya yeni güc kimi meydana çıxıb 1894-95-ci illərdə Çin ilə müharibədə Tayvanı zəbt etdi. 1904-1905-ci illərdə Rusiya ilə müharibədə qalib gələrək Cənubi Mancuriya dəmir yolu üzərində nəzarəti ələ aldı. 1905-ci ildə Koreya üzərində protektoratlığa, 1910-cu ildə isə yarımadanı anneksiya etməyə nail oldu. Paralel olaraq 1858-ci ildə imzalanmış “qeyri-bərabər” müqavilələr də addım-addım qüvvədən salındı.

Azərbaycanın 1993-2020-ci illər ərzində yürütdüyü siyasətin prinsiplərinin bu sadaladığımız tarixi nümunələrlə müqayisəsi çox maraqlı mənzərəni ortaya çıxarır və tarixi ümumiləşdirmə imkanı verir.

### “Paasikivi-Kekkonen doktrinası” ilə “Heydər Əliyev-İlham Əliyev doktrina”sının müqayisəsi

Azərbaycanın Respublikasının tarixi və müstəqillik dövrünün Finlandiyanın (əhalisi-5.6 milyon) müstəqillik dövrü ilə müqayisə olunmalı çox məqamları var. O Finlandiya ki, NATO üzvlüyünü bu alyans yarandığı gündən gözləyir, paralel olaraq SSRİ və daha sonra Rusiya ilə sıx iqtisadi, humanitar əlaqələr qurur, Moskva əleyhinə layihələrdə iştirak etmirdi.

Finlandiya Rusiya imperiyasından 1917-ci ildə, Azərbaycan isə 1918-ci ildə müstəqilliklərini elan etdilər. Hər ikisi Rusiya ilə həmsərhəddir. 1917-ci ildə müstəqilliyini elan edərkən Almaniya Finlandiyaya kömək etmişdi.

1918-ci ildə Osmanlı İmperatorluğu Azərbaycanın müstəqilliyini qorumasına dəstək verdi. 1922-ci ildə isə Azərbaycan Atatürk Türkiyəsinin əl-qolunun bağlı olması səbəbindən müttəfiqsiz qaldı və SSRİ-nin tərkibinə daxil edildi, 18 il sonra 1940-cı ildə Finlandiya savaşda SSRİ-yə məğlub oldu. Bu dəfə Almaniya Finlandiyaya dəstək vermək iqtidarında deyildi. Böyük Britaniya da Almaniyadan təhlükə gözləntisinin təsiri altında Finlandiyanın məğlubiyyətini kənardan izləməli oldu. 1940-cı il məğlubiyyətindən sonra Finlandiya dövləti dərin böhrana girdi. Amma, məhz “Paasikivi-Kekkonen siyasi xətti”nin və ya “doktrina”sının tətbiqi nəticəsində böhran mənbələrini bərtərəf edib yeni inkişaf səhifəsini açmaq mümkün oldu.

Prezident Paasikivi geosiyasi reallığı Finlandiyanın iqtisadi və siyasi inkişafının baza çərçivəsi kimi götürdü və bu siyasət uzun illər Qərb dövlətləri tərəfindən tənqidə məruz qalmasına baxmayaraq uğurla davam etdirildi.

Bəs **“Paasikivi-Kekkonen doktrinası”** adlanan siyasətin təməl prinsipləri nədən ibarət idi?

1946-82-ci illərdə Finlandiya müstəqilliyini qoruyub saxlamaqla yanaşı, öz xarici siyasətində SSRİ-nin maraqlarını da nəzərə almaq, Avropa İttifaqı və NATO da daxil olmaqla Avropa strukturlarına inteqrasiya məsələsində təmkin və rasionallıq nümayiş etdirdi.

Azərbaycan da 1993-cü ildən başlayaraq, Finlandiyanın, təqribən, 40 il ərzində yürütdüyü siyasətin prinsiplərini Cənubi Qafqazda tətbiq etdiyi üçün bu siyasətə də **“Heydər Əliyev-İlham Əliyev doktrinası”** adlandıra bilərik.

Finlandiya 1940-cı ildə SSRİ ilə müharibəni uduzduqdan sonra bu siyasətin tətbiqinə qərar verdi. Azərbaycan da 1993-cü ilin aprelindən avqustun sonunadək 6 rayonu itirərək dərin hərbi, siyasi və iqtisadi böhrana girmişdi. 1940-cı ildə Finlandiya kimi Azərbaycan da müttəfiqsiz qalmışdı və vəziyyətdən təkbaşına çıxmalı idi.

Səbəblər də demək olar ki, oxşardır: Finlandiyanın SSRİ ilə tarazlaşdıracaq alternativ müttəfiqi yox idi. Üstəlik, 1939-40-cı illər Sovet-Fin savaşını uduzmuşdu. Müharibədən sonra Almaniya parçalanmışdı, NATO da uzaqda, sosialist düşərgəsinin o tayında idi. Qonşu İsveç və Norveç isə SSRİ-yə qarşı alyans yaratmaq iqtidarında deyildilər.

Azərbaycanın isə vəziyyət Finlandiyadan daha ağır idi. İqtisadi inkişaf üçün Finlandiyanın Baltik dənizinə, Avropa bazarına, dünya okeanına çıxışı, İsveç və Norveçlə quru əlaqələri var idisə, Azərbaycanda belə çıxışların olmamasına hələ Ermənistanla müharibə də əlavə olunmuşdu. Odur ki, “Paasikivi-Kekkonen xətti”ndən fərqli olaraq “Heydər Əliyev-İlham Əliyev doktrinası” daha ağır coğrafi, hərbi və iqtisadi şərtlər daxilində müstəqilliyi qoruyub saxlamağa hədəflənmişdi.

Baş nazir olduğu dövrdə Paasikivi SSRİ-nin geosiyasi təsir gücünü nəzərə alaraq hətta 1944-cü ildə Kommunist Partiyasının üzvünü Finlandiya hökumətinə təyin etmiş, ikinci hökumətdə isə Kommunist Partiyası koalisiyaya daxil edilmişdi.

Prezident Paasikivi 1948-ci ildə SSRİ ilə dostluq və tərfdaşlıq haqda saziş imzalamaqla yeni siyasi münasibətlər erasının əsasını qoydu. SSRİ ilə NATO arasında neytral mövqe tutmaqla Prezident Paasikivinin əsas hədəfləri Finlandiyanın sovetləşməsinin, Kommunist Partiyasının hakimiyyətə gətirilməsinin qarşısını almaq, Finlandiyanın müstəqilliyini qorumaq və paralel olaraq Avropa ilə iqtisadi-ticarət əlaqələrini saxlamaq, tədricən dərinləşdirmək idi. Halbuki, beynəlxalq təşkilatlarda Finlandiya SSRİ ilə eyni mövqedə dayanır, səsvermə zamanı həmrəylik göstərir və yaxud da səsvermədə iştirak etmirdi. Paasikivi, hətta, 1954-cü ildə Lenin ordeni ilə də təltif edilmişdi.

Bu siyasət 1961-ci ildə Almaniya və Qərbi Berlin böhranı zamanı Prezident Kekkonenin Xruşovla yaxşı şəxsi münasibətləri sayəsində Finlandiyanı vəziyyətdən çıxardı və sovetləşdirilməsinin qarşısını aldı. Kekkonenin 25 illik prezidentliyi dövründə Qərblə əlaqələr də SSRİ-dən uzaqlaşmadan xeyli gücləndirildi. Finlandiya ilə SSRİ arasında elə güclü iqtisadi əlaqələr var idi ki, hətta SSRİ-nin tənəzzülündən sonra 1991-1994-cü illərdə Finlandiya iqtisadiyyatı dərin böhran keçirmişdi. Bununla belə **“Paasikivi-Kekkonen siyasi doktrinası”** Finlandiyanı tarixinin ən dərin böhranından çıxararaq inkişaf etmiş dövlət səviyyəsinə çatmasında mühüm rol oynadı.

(ardı var)

***İbrahim MƏMMƏDLİ,***
***tarix üzrə fəlsəfə doktoru***

# Ulu öndərin ömür yolu akademik nəşrdə




**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovun “İkinci olmayacaq” adlı kitabı “Elm və təhsil” nəşriyyatında çapdan çıxıb.**

Müəllifin Ulu öndər Heydər Əliyevin gerçəkləşən arzusuna – Qarabağ savaşında Azərbaycanın Zəfərinə ithaf etdiyi bu kitabda ölkəmizin hakimiyyət tarixinin ən müstəsna şəxsiyyətlərindən olan Heydər Əliyevin uşaqlıq illərindən sovet zamanında Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrün sonuna qədərki həyat və fəaliyyəti əks olunur. Kitabda bildirilir ki, Ulu öndər Heydər Əliyev ilk gənclik illərindən başlayaraq 80 illik ömrünün sonunadək 60 ilə yaxın müddətdə dövlət qulluğunda olub. Azərbaycan Respublikasını həm sovet dönəmində 14 il, həm də müstəqillik illərində 10 il idarə etmiş, 5 il isə sovet dövlətinin rəhbərlərindən biri olmuş Heydər Əliyev öz xalqının və yurdunun tarixində silinməz izlər qoymuşdur.

O, XX yüzilin 90-cı illərində Azərbaycanın Sovet İttifaqının tərkibində 70 illik mövcudluğundan sonra yenidən qazanılmış dövlət müstəqilliyinin qorunub-saxlanması, möhkəmləndirilməsi və inkişafındakı misilsiz əməklərinə, müasir milli dövlətin qurucusu olmasına görə sevgi ilə xalqın Ümummilli lideri adlandırılmış, yaddaşlarda əbədilik yaşamaq haqqı qazanmışdır.

Əsərdə Heydər Əliyevlə birgə işləmiş, onunla təmasda olmuş insanların xatirələri ilə yanaşı, zəngin arxiv materialları və tarixi sənədlərdən istifadə edilmişdir.

Kitabda Azərbaycan əksər dövlət arxivlərinin, elm qurumlarının və muzeylərinin fond materialları əsasında Heydər Əliyevin ömür yolu və fəaliyyətinin ayrı-ayrı məqamları geniş şəkildə təsvir edilir. Eyni zamanda, kitabda bir çoxu ilk dəfə işıq üzü görən nadir fotoşəkillər də yer alıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Ermənistan konstitusiyasına düzəliş etməlidir!

## Hayların əsas qanununda Azərbaycana qarşı ərazi iddiaları hələ də qalmaqdadır

**Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi apararaq işğal altındakı torpaqlarının xeyli hissəsini azad etdi. Bir ay öncə – sentyabrın 19-da başlayan və bir sutkadan az davam edən antiterror tədbirləri nəticəsində isə separatçı rejimin nəzarəti altında qalan ərazilər üzərində suverenliyimiz tam bərqərar olundu. Sentyabrın 28-də qondarma rejimin sonuncu başçısı Samvel Şahramanyan 2024-cü il yanvarın 1-dən "dqr"in mövcudluğuna xitam verilməsi haqqında "fərman" imzaldı. Beləliklə, Azərbaycan Sovet İttifaqının dağılmasından sonra ərazi bütövlüyü problemi ilə üzləşən ölkələr arasında bu problemi aradan qaldırmağa, etnik separatizm ocağını söndürməyə müvəffəq olan yeganə dövlət oldu.**

Hazırda Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqlar aparılır. Oktyabrın 17-də Avropa Parlamentində çıxış edən baş nazir Nikol Paşinyan oktyabrın axırlarında Brüsseldə keçiriləcək görüşü nəzərdə tutaraq ilin sonunadək iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının yüksək dərəcədə real olduğunu bildirib. Buna baxmayaraq, Ermənistan hökumətinin ondan gözlənilən bəzi addımları hələ də atmaması İrəvanın sülh istəyində səmimi olmadığına dəlalət edir. Həmin addımlara nümunə olaraq 8 anklav kəndimizin hələ də erməni işğalı altında olmasını, delimitasiya prosesinin başa çatmadığını, bundan sonrakı mərhələ olan demarkasiya xəttinin müəyyənləşmədiyini, habelə Ermənistan konstitusiyasından və digər qanunlarından, gerbindən Azərbaycana və Türkiyəyə ərazi iddialarına əsas verən məqamların çıxarılmadığını göstərmək olar.

Halbuki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi mövcud deyil. Ümumiyyətlə, "Dağlıq Qarabağ" saxta, qondarma bir məfhumdur. 1923-cü il iyulun 7-də Kremlin diktəsi və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə respublikamızın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Vilayət 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsindən sonra İrandan, Yaxın Şərqin digər yerlərindən Qarabağa köçürülən ermənilər üçün qurulub. DQMV-nin inzibati sərhədləri elə cızılıb ki, orada mümkün qədər çox erməni yaşamış olsun.

Əslində, bu vilayətin yaradılması Azərbaycan dövlətinin altına qoyulmuş mina idi. Bu mina nə vaxtsa işə düşməli idi. Onun işə düşməsi 1987-ci ilin sonlarına təsadüf edib. 1991-ci il sentyabrın 2-də isə DQMV və ona daxil olmayan, yaşayış məntəqələrinin əksəriyyətində ermənilərin yaşadığı Şaumyan rayon XDS-nin birgə iclasında "dqr" elan olunub. Azərbaycan Ali Sovetinin 1991-ci il 26 noyabr tarixli qərarı ilə separatçı DQMV-nin varlığına son qoyulub. Həmin gün Ali Sovet DQMV-nin ləğv olunması barədə qərar qəbul edib. Şaumyan rayonunun varlığına isə bundan bir müddət öncə – 1991-ci il fevralın 12-də Azərbaycan Ali Sovetinin qərarı ilə son qoyulub. Beləliklə, keçmiş DQMV-nin ərazisi Yuxarı Qarabağ iqtisadi rayonunun, Şaumyan rayonu isə Goranboy rayonunun tərkibinə daxil edilib. Bunu qeyd etməkdə məqsədimiz "Dağlıq Qarabağ" məfhumunun müstəqil Azərbaycana yad olduğunu göstərməkdir.

Vətən müharibəsində qələbədən sonra işğaldan azad edilmiş ərazilərin yeni bölgüsünün yaradılması zərurəti meydana çıxıb. Prezident İlham Əliyevin Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında 2021-ci il 7 iyul tarixli fərmanına əsasən, işğaldan azad edilmiş ərazilər iki iqtisadi rayonun – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tərkibinə daxil edilib. Hazırda Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları, Şərqi Zəngəzur iqtisadi rayonuna isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxildir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması barədə fərmanın DQMV-nin yaradılmasının 98-ci ildönümü günündə imzalanması da təsadüfi sayılmamalıdır.

Bu günlərdə separatçıların özlərinə "paytaxt" seçdikləri Xankəndi şəhərində Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Dövlət Bayrağının ucaldılması tarixi hadisə olmaqla yanaşı, bir əsrdən sonra haqq-ədalətin zəfər çalmasının təcəssümüdür. Dövlət Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışı zamanı dövlətimizin başçısı bu məqama da toxundu: "Ulu öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt – 1992-1993-cü illərdə Ermənistanın yanında idilər, onu işğala təhrik edirdilər, işğalı dəstəkləyirdilər və onlara bəraət qazandırırdılar. Bu 30 il ərzində heç nə dəyişməyib..."



### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,
"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri**

**– Əgər Ermənistan Azərbaycanla sülh sazişi imzalamaq, Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyirsə, bəli, konstitusiyasına da mütləq əl gəzdirməlidir. Ağrı dağının ermənilərin simvolu kimi təqdim olunmasını, Türkiyəyə, Azərbaycana ərazi iddialarını aradan qaldırmaq üçün əsas qanuna dəyişiklik edilməlidir. Əslində, Nikol Paşinyanın parlamentdə bununla bağlı çıxışı da olmuşdu. Amma Ermənistanda radikallar və revanşist düşüncədə olanlar bu məsələdə də Paşinyana müqavimət göstərməyə çalışacaqlar.**

**İstənilən halda, Ermənistanın bir tərəfdən Azərbaycanla sülh sazişini imzalaması, Türkiyə ilə diplomatik münasibətlər qurması, ancaq konstitusiyasında iki ölkəyə ərazi iddialarının yer alması çox qəribə olardı. Əlbəttə, Bakı və Ankara İrəvandan bu iddiaları qanunvericilik səviyyəsində aradan qaldırmağı da tələb edəcəklər. Yəni, sözdə ərazi bütövlüyünü tanımaq şərt deyil. Konstitusiyadakı məntiqə zidd maddələr də aradan qaldırılmalıdır. Aradan qaldırılmasa belə çıxacaq ki, ermənilər Azərbaycanla sülh sazişi imzalasalar, Türkiyə ilə diplomatik münasibət qurmağa hazır olsalar da, iki ölkəyə ərazi iddiaları yenə onların qəlblərinin dərinliklərində, yaxud gündəmində qalıb.**

**Bir məqam da bundan ibarətdir ki, Ermənistanda beyinlər kifayət qədər zəhərlənib. Hətta, konstitusiyadan o maddələri çıxarsalar belə, bir qrup radikal-revanşist erməni yenə də Türkiyə və Azərbaycana qarşı mübarizəyə çağıracaq. Necə ki, yüz il əvvəl belə olub. Onlar Osmanlı dövlətinə arxadan zərbə vurmaq istədilər. Rusiya imperiyasının və Fransanın əlində alət oldular. Azərbaycana müxtəlif illərdə zərbələr vurdular.**

**Əlbəttə, barmağımız hər zaman tətikdə olmalıdır. Bilməliyik ki, belə bir üzdəniraq qonşumuz var. Bu dövlətin mənsubları sözdə bizimlə sülh sazişi imzalamaq, diplomatik münasibət qurmaq istəsələr də, qəlblərinin dərinliklərində düşünürlər ki, yenə də güclənək, hayıfımızı alaq. Ona görə də Azərbaycan və Türkiyə Ermənistandan konstitusiyasında əksini tapan qonşu dövlətlərə ərazi iddialarına birdəfəlik son qoymasını tələb etməlidirlər.**

Beləliklə, İrəvan, nəhayət, həm tarixi həqiqətləri, həm də bölgədə yaranmış yeni reallıqları nəzərə almalı, öz konstitusiyasından "Ermənistan Dağlıq Qarabağın təminatçısıdır" kimi məhfumları çıxarmalı, sülhə gedən yola əngəl törətməməlidir.

Bundan əlavə, haylar dövlət gerbindən Türkiyə ərazisində yerləşən Ağrı dağının təsvirini çıxarmalı, onu "Ararat dağı" adlandırmaqdan "erməni xalqının simvolu" hesab etməkdən əl çəkməlidirlər. Haylar iddia edirlər ki, hətta, Nuh peyğəmbər də erməni olub. Onun gəmisi "Böyük daşqın" başa çatandan – sular çəkiləndən sonra Ağrı dağının zirvəsinə yan alıb və burada ilişib qalıb...

Onu da qeyd edək ki, baş nazir N.Paşinyan iyun ayında parlamentdə çıxış edərkən ölkəsinin gerbini və himnini dəyişmək niyyətini açıqlamışdı. O demişdi: "Gerbimiz psixologiyamızı güclü şəkildə əks etdirir. Orada nə göstərilir? Ağrı dağında Nuhun gəmisi və Ermənistanın dörd çarlığının simvolları. Hamımız üçün müqəddəs olan bu obrazın 1991-ci ildə qurulan dövlətə nə dəxli var? Mərkəzə baxanda Ağrı dağında Nuhun gəmisini və indiki Ermənistan Respublikasının su altında qalan ərazisini görmək olar. Orada uzun müddət Ermənistanın təbii şəraitində yaşamayan şiri də görmək mümkündür. Müzakirə etdiyimiz bu problem, əslində, bizim hər birimizdə mövcud olan ikitirəlikdə – tarixi Ermənistanla real Ermənistan arasındadır. Nə qədər emosional və hansı arqumentlərlə əsaslandırılmasından asılı olmayaraq, sual yaranır: həqiqi Ermənistan tarixi Ermənistana, yoxsa tarixi Ermənistan həqiqi Ermənistana xidmət etməlidir?"

Göründüyü kimi, bu ziddiyyətə Paşinyan özü də münasibət bildirib. Amma bu istiqamətdə hələ də real addım atılmayıb. Rəsmi İrəvan, nəhayət, Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarına əsas verən müddəaları əsas qanunundan çıxarmalıdır. Bu addımın atılması Paşinyan hökumətinin sülh istəyində səmimi olduğunun göstəricisi olardı.

***Səxavət HƏMİD***
***XQ***

# Paşinyan kimin yolu ilə gedir?

## Erməni baş nazirinin Strasburqdakı çıxışı Rusiyada qəzəb doğurub

**Ermənistan baş naziri Nikol Paşinyan yenə də çaşır, vəziyyəti düzgün qiymətləndirmir, arxasını söykəməyə divar axtarır. Bir tərəfdən sülhdən dəm vurur, digər tərəfdən də Azərbaycanı əsassız yerə ittiham edir. İkili standartlar nümayiş etdirən Avropa da ermənilərin başbilənini alqışlayır, onu yeni intriqalar qurmağa həvəsləndirir. N.Paşinyan Strasburq səfərində səsləndirdiyi fikirlər hətta Moskvada da qəzəblə qarşılanır. Rusiya Ermənistanı "Ukraynanın yolu ilə getdiyini" deməyə başlayıblar.**

Qarabağ münaqişəsi artıq tarixdir. Amma Ermənistan hələ də reallıqla barışmaq istəmir, regional əməkdaşlığa yol açacaq addımlar atmaq əvəzinə, Azərbaycanı olmayan "günahlarda" ittiham etməyə çalışır. Korrupsiya qalmaqallarında itib-batmış Avropa Parlamenti də 30 il işğalçılıq siyasəti yürütmüş ölkənin baş nazirinə əl çalır, "demokrat" baş naziri yeni avantüraya həvəsləndirir. N.Paşinyanın Avropakı çıxışı təkcə rəsmi Bakının yox, Rusiyanın da etirazına səbəb olub. Moskva Nikol Paşinyanın Avropa Parlamentində çıxışını tənqid edib və onu təxribat xarakterli çıxış kimi qiymətləndirib. Bu barədə RİA Novosti-yə yüksək vəzifəli mənbə məlumat verib. "Biz Ermənistanın baş naziri Nikol Paşinyanın oktyabrın 17-də Avropa Parlamentindəki çıxışını, xüsusən Rusiya və Rusiya-Ermənistan münasibətləri ilə bağlı tamamilə məsuliyyətsiz və təxribat xarakterli çıxış kimi qiymətləndiririk", - agentliyin həmsöhbəti bildirib. Mənbənin fikrincə, "onlar Ermənistanı 3 nömrəli Ukraynaya çevirməyə çalışırlar və Paşinyan Zelenskinin yolu ilə gedir".

Xatırladaq ki, oktyabrın 17-də Avropa Parlamentindəki çıxışında Nikol Paşinyan erməni əhalisinin Qarabağdan köçürülməsi fonunda Rusiya sülhməramlılarını "fəaliyyətsizlikdə" günahlandırmışdı. O, həmçinin konkret ölkələrin adını çəkmədən "təhlükəsizlik müttəfiqlərini" tənqid etmişdi. N.Paşinyanın sözlərinə görə, "100 min insan Qarabağdan Ermənistana qaçarkən İrəvanın müttəfiqləri "nəinki kömək etməyib, hətta hakimiyyətin dəyişdirilməsi ilə bağlı ictimai çağırışlar da ediblər". Ermənistanın baş naziri də Avropa İttifaqı ilə əməkdaşlığa və bu birliyə mümkün qədər yaxınlaşmağa hazır olduğunu bildirib. Politoloq Suren Surenyants fikrincə, Nikol Paşinyanın Avropa Parlamentində "bəzi müttəfiqləri" ölkədə hakimiyyəti dəyişmək istəməkdə günahlandırdığı çıxışı göstərir ki, Ermənistan baş naziri Ukraynanın dərslərindən nəticə çıxarmayıb və ölkə regionda anti-Rusiya tramplininə çevrilib".

"Bu, kifayət qədər açıq mətnlə Ermənistanın Ukraynaya çevrilməsi ilə bağlı açıqlama idi. Təəccüblüdür ki, başqa geosiyasi mərkəzdə olan bir ölkənin rəhbəri öz maraqları əvəzinə, hətta bu müttəfiq formal olsa belə, orada strateji müttəfiqinə böhtan atmağa başlayır. Xarici siyasətdə (Ermənistanın -red.) xaotik qeyri-müəyyənlikdir. Bir həftə əvvəl o and içmişdi ki, Ermənistan xarici siyasətinin vektorunu dəyişmək fikrində deyil və dünən( oktyabrın 17-də) rusların Ermənistanda nə etmək istədiklərini izah edərək, qatı anti-Rusiya çıxışını etdi. Hətta Ukrayna Paşinyan üçün dərs olmadı. Əslində o, Ermənistanı anti-Rusiya tramplininə çevirməyə razılıq verib". Xatırladaq ki, Avropa Parlamentində çıxışı zamanı N.Paşinyan bildirib ki, Ermənistanın təhlükəsizlik müttəfiqləri Qarabağ ətrafındakı vəziyyət fonunda, guya, açıq şəkildə ölkədə hakimiyyət dəyişikliyinə çağırıblar. Lakin o, hansı müttəfiqlərin bu cür çağırışlar etdiyini dəqiqləşdirməyib.

Siyasi müşahidəçilərin fikrincə, N.Paşinyanın anlaşılmaz davranışı müəyyən niyyət və məqsədlər güdür. Erməni baş nazir Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsini istəyir. Ermənistan Avropada bəzi siyasi dairələrdə mövzuda müzakirələr getdiyini nəzərə alaraq, sanksiya məsələsinin gündəmdə saxlamağğa çalışır. Amma mütəxəssislər sanksiyaların tətbiq olunacağını düşünmürlər. Fakt budur ki, Azərbaycanın Avropa neft və qaz bazarındakı rolu Avropa İttifaqı üçün çox vacibdir. Azərbaycan müharibədə qalib gəldi, hərbi-siyasi üstünlüyünü nümayiş etdirdi və Ermənistanın da artıq sövdələşmə aparmağa heç bir əsası yoxdur. Əksinə, sülh müqaviləsinin imzalanmasını yubatlamaqla İrəvan vəziyyətini ağırlaşdıracaq. Ancaq N.Paşinyan indi erməni əhalisinin Qarabağdan köçməsi ilə bağlı vəziyyətdən istifadə edərək, həyasızcasına Azərbaycanı açıq şəkildə, Rusiyanı isə üstüörtülü ittiham edir. Əslində, bu, erməni diplomatiyasının ruhuna uyğundur. Mütəxəssislərin fikrincə, N.Paşinyan indi ermənilərin Azərbaycandan Ermənistana köçməsindən sövdələşmə predmeti kimi istifadə etməyə çalışır. Ancaq Rusiya Federasiyasının Dövlət müşaviri, birinci dərəcəli Tatyana Poloskovanın vurğuladığı kimi, N.Paşinyan unudur ki, o, Avropa İttifaqı üçün heç də mühüm fiqur deyil, sadəcə olaraq Cənubi Qafqazda hansısa çirkli kombinasiyaların həyata keçiriləcəyi alətdir.

***S.ELAY***
***XQ***

## *Rusiya XİN:*

# Kommunikasiyaların açılması sülhə təkan verəcək

**"Kommunikasiyaların açılması, o cümlədən, Azərbaycan və Ermənistan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, eləcə də, ictimai xadimlər və parlamentarilər arasında dialoqun başlanması ilə bağlıdır".**



Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "trend"ə açıqlamasında deyib. O, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılmasını Azərbaycan – Ermənistan münasibətlərinin normallaşması istiqamətində əsas element olduğunu diqqətə çatdırıb. XİN rəsmisi onu da bildirib ki, bölgədə nəqliyyat kommunikasiyalarının açılması 2020-2022-ci illərdə yüksək səviyyədə üçtərəfli razılaşmalar kompleksi əsasında qurulan ikitərəfli münasibətlərin normallaşmasına xidmət edəcək: "Bu məsələ ilə məşğul olmaq Rusiya, Azərbaycan və Ermənistanın baş nazir müavinlərinin həmsədrliyi altında fəaliyyət göstərən Üçtərəfli İşçi Qrupa (ÜİQ) həvalə edilib. Bu günədək ÜİQ-nin 12 iclası keçirilib (sonuncu 2023-cü il iyunun 2-də baş tutub – red.). Həmin görüşdə perspektiv dəmir yolu və avtomobil marşrutları paketi hərtərəfli nəzərdən keçirilib".

M.Zaxarova ÜİQ-nin 12-ci iclasının yekunlarına əsasən, Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyalarının açılmasının modallıqlarının razılaşdırılmasında hissediləcək irəliləyişin qeydə alındığını xatırladıb.

"Arazdəyən–Culfa–Mehri–Horadiz marşrutu üzrə dəmir yolu əlaqəsinin bərpası və təşkili üzrə konkret addımların atılmasına dair ümumi razılıq əldə olunub. Hökumətlərarası üçtərəfli fəaliyyətimizdə qarşılıqlı anlaşma və hər iki ölkənin suverenliyinə və daxili qanunvericiliyinə hörmət prinsiplərinə riayət etməyi əsas götürürük", – deyə Mariya Zaxarova əlavə edib.

M.Zaxarova iki ölkə arasında kommunikasiyaların açılması yolunda uğurun üçtərəfli fəaliyyətin digər istiqamətlərinə də əlavə təkan verəcəyini bildirib.

Oxuculara xatırladaq ki, Azərbaycanın təklif etdiyi Zəngəzur dəhlizi layihəsi Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisi vasitəsilə nəqliyyat əlaqəsinin yaradılmasını nəzərdə tutur. Həmin layihə Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda öz əksini tapmış qarşılıqlı razılaşmalar nəticəsində ərsəyə gəlib. Müvafiq razılaşma bəyanatın axırıncı – 9-cu bəndində qeyd olunub. Bəyanatın həmin bəndi Ermənistanın hər iki istiqamətdə insanların, nəqliyyat vasitələrinin və malların sərbəst hərəkətini asanlaşdırmaqla Naxçıvanla nəqliyyat əlaqəsinin təhlükəsizliyinin təmin olunmasına sadiqliyini nəzərdə tutur.

Rusiya XİN-in rəsmisi bu marşrutun (Zəngəzur dəhlizi nəzərdə tutulur – red.) böyük potensiala malik olmaqla yanaşı, "Bir kəmər, bir yol" layihəsinin davamı, eləcə də, Şimal–Cənub dəhlizinin bir hissəsi ola biləcəyini bildirib.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qarabağ və Şərqi Zəngəzurun bərpası ümummilli hədəfdir

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, düşməndən təmizlənən ərazilərin yenidən qurulması üçün büdcədən vəsait ayrılması Vətən müharibəsindən sonra daim diqqətdə saxlanılıb. Maliyyə Nazirliyinin məlumatına görə, ötən 9 ay ərzində Azərbaycan hökuməti Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq layihələrinə 3 milyard 741 milyon manat vəsait yönəldib. Bu, 2023-cü ilin dövlət büdcəsində sözügedən məqsədlə nəzərdə tutulan vəsaitin 77,9 faizi deməkdir. Həmin vəsait sifarişçi təşkilatların müvafiq layihələr üzrə təqdim etdiyi kassa sifariş sənədləri əsasında istifadə olunub.

Dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üzrə icraçıların verdiyi sifarişlər əsasında 1 milyard 588,5 milyon manat maliyyələşdirilmə həyata keçirilib ki, bu da cari ildə həmin məqsəd üçün nəzərdə tutulmuş xərclərin 59,7 faizinə bərabərdir. İşğaldan azad edilən ərazilərin bərpası məqsədilə 2024-cü ilin dövlət büdcəsindən isə 3 milyard 825 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Bütün bunlar bir daha onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Prezident İlham Əliyev bununla bağlı çıxışlarının birində deyib: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır, hamısını öz hesabımıza edirik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Dövlətimizin başçısının bu sözləri deməyə əsas verir ki, ölkəmizin zəngin potensial imkanları azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində səfərbər edilib.

**XQ**






# Cənub Qaz Dəhlizi Azərbaycanı Avropaya qovuşdurur

## *Bu kəmərdə "mavi yanacaq" nəqli 9 faiz artıb*

**9 ayda ölkəmizin təbii qaz ixracının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 9 faiz artıb. Hesabat dövründə Avropaya 8,6 milyard kubmetr, Türkiyəyə 7,5 milyard kubmetr, Gürcüstana isə 1,7 milyard kubmetr "mavi yanacaq" ixrac olunub. Bu müddətdə Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə Türkiyə 4,3 milyard kubmetr qazla təchiz edilib.**

Bu göstəricilər, təbii ki, ölkəmizin neftqaz potensialının zənginliyindən xəbər verir. Belə bir ehtiyatla Azərbaycan uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. "Köhnə qitə"nin təbii qazla təminatına böyük töhfələr verən respublikamız artıq bu gün özünü etibarlı enerji tərəfdaşı kimi təsdiqləyir. Azərbaycanın TAP vasitəsilə Avropaya qaz ixracına başlamasından isə 3 ilə yaxın bir vaxt ötür.

Azərbaycan qazının Avropanın cənubuna nəql olunduğu Cənub Qaz Dəhlizinin (CQD) Avropa hissəsi olan Trans–Adriatik Qaz Boru Kəmərinin (TAP) ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr təşkil edir. Hazırda TAP AG konsorsiumu kəmərin ötürücülüyünün artırılması üçün 3 ssenarini (məhdud – 14,4 milyard kubmetrə qədər, qismən – 17,1 milyard kubmetrə qədər və tam – ildə 20 milyard kubmetrə qədər) nəzərdən keçirir.

TAP-ın tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Kəmərin ümumi uzunluğu 878 kilometrdir. Bunun isə 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. XXI əsrin nəhəng enerji dəhlizi olan CQD-nin son seqmenti sayılan TAP boru kəməri Avropa ölkələrinə qaz idxalı marşrutlarını şaxələndirməyə geniş imkanlar yaradır. Artıq bir sıra ölkələr tərəfindən interkonnektorlar (birləşdirici kəmərlər) vasitəsilə TAP boru kəməri ilə daxili qaz şəbəkələrini əlaqələndirməyə maraq göstərilir. Bu da Azərbaycan qazının Avropanın dərinliklərinə qədər gedib çatmasını şərtləndirir.

Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü 2020-ci il dekabrın 31-dən başlayıb. Yunanıstan–Bolqarıstan İnterkonnektorunun (IGB) qurulması ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının istismarının II mərhələsi çərçivəsində hasil edilən "mavi yanacağ"ın Bolqarıstana nəqli nəzərdə tutulub. "Bulgargaz EAD" dövlət şirkəti tərəfindən bu məqsədlə "Şahdəniz-2" yatağından 1 milyard kubmetr qazın tədarükü üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalanıb. Azərbaycan təbii qazının Bolqarıstanın tələbatının 25-30 faizini ödəyə biləcəyi də proqnozlaşdırılıb.

IGB vasitəsilə tədarük edilən Azərbaycan təbii qazının həcmi Bolqarıstanın tələbatının təxminən 75 faizini ödəyir və bu ölkədə "mavi yanacaq"la bağlı münasib qiymətlərin formalaşmasında həlledici rol oynayır. Bolqarıstanın respublikamızdakı fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanov mediaya müsahibəsində bu barədə ətraflı bəhs edərək interkonnektorun ölkəsinin müxtəlif mənbələrdən və marşrutlardan qazın paylanması üçün əsl regional haba çevrilməsinə imkan yaratdığını diqqətə çatdırıb. Səfir müsahibəsində, eyni zamanda, IGB-nin ötən il oktyabrın 1-də Sofiyada Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin iştirakı ilə keçirilən mərasimdə kommersiya tədarükünə başladığını da vurğulayıb.

Xatırladaq ki, sözügedən interkonnektor "mavi yanacağ"ın Yunanıstan ərazisi ilə TAP vasitəsilə Bolqarıstana və qonşu ölkələrə nəqli üçün əsas marşrutdur. Bu, Cənub–Şərqi Avropa regionuna qaz tədarüklərinin diversifikasiyası üçün mühüm və ümumi maraq daşıyan layihə olmaqla Mərkəzi və Şərqi Avropada enerji bağlantısı üzrə yüksək səviyyəli infrastrukturdur. Eyni zamanda, Bolqarıstana təbii qaz nəqlinin diversifikasiyalaşdırılması üçün ilk marşrut olan interkonnektor tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə təbii qaz bazarında rəqabəti şərtləndirir.

**XQ**

# Çin Azərbaycanın 4-cü iri ticarət tərəfdaşıdır

## *Asiya nəhəngi ölkəmizə 920 milyon dollar sərmayə yatırıb*

**Azərbaycan–Çin münasibətlərinin inkişafında əhəmiyyətli rol oynayan "Bir kəmər, bir yol" layihəsi çərçivəsində indiyədək çoxsaylı tədbirlər həyata keçirilib. Bununla da iki dost dövlət bu qlobal təşəbbüsün reallaşmasına mühüm töhfələr verib.**

Çində səfərdə olan energetika naziri Pərviz Şahbazovun bu ölkənin Milli Enerji Administrasiyasının rəhbəri Zhang Jianhua ilə görüşündə də bu faydalı əməkdaşlıqdan ətraflı bəhs olunub. Söhbət zamanı hər iki ölkə rəhbərinin dostluğu və strateji baxışlarının gələcək ikitərəfli əlaqələrin genişləndirilməsi, yeni texnologiyaların tətbiqi, enerji infrastrukturunun yenilənməsi üzrə münasibətləri daha da dərinləşdirəcək. Eyni zamanda, adıçəkilən Anlaşma Memorandumu tərəflər arasında əməkdaşlığın güclənməsinə, qarşılıqlı hərtərəfli əlaqələri təşviq etdiyi, həmçinin Azərbaycan–Çin münasibətlərinin dərinləşdirilməsi istiqamətində böyük imkanların mövcudluğu bildirilib.




Xatırladaq ki, hər iki ölkə arasında münasibətlər bu gün "Bir kəmər, bir yol"la yanaşı, digər iqtisadi sahələrdə də sürətlə inkişaf edir. SOCAR dost ölkəyə Azərbaycan və digər mənşəli xam neft, neft, neft-kimya məhsullarının, eləcə də mayeləşdirilmiş qazın (LNG) təchizatını uğurla həyata keçirir. Azərbaycanın elekroenergetika sektorunda Çin şirkətlərinin fəal iştirakı enerji əməkdaşlığını getdikcə möhkəmlədir. Bununla bərabər Çinin enerji müəssisələri ilə uzunillik əlaqələr hazırda "yaşıl enerji" və "yaşıl texnologiya"lar üzrə layihələrlə münasibətlər yeni inkişaf mərhələsinə daxil olur. Bu xüsusda 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının inşasında "Dongfang" şirkətinin iştirakı, "China Gezhouba Group Overseas Investment" müəssisəsinin 2 QVt gücündə bərpaolunan enerji layihəsinin icrasında fəaliyyəti respublikamız tərəfindən yüksək dəyərləndirilir.

Energetika naziri Pərviz Şahbazovun Çinə səfəri çərçivəsində elektrik enerjisi, neft-qaz, neft-kimya və bərpaolunan enerji sahələrində əməkdaşlığın inkişafı, həmçinin enerji layihələrinə investisiyanın təşviqi məqsədilə "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında Anlaşma Memorandumu" imzalanması da bu dost ölkələrin energetika sektorunda investisiya və biznes fəaliyyətlərinin təşviqininə, bərpaolunan enerji mənbələri sahəsində təcrübə mübadiləsinin keçirilməsinə müsbət təsir göstərəcək.

Onu da xatırladaq ki, Çinin innovasiya yönümlü investisiya imkanları respublikamız üçün mühüm önəm daşıyır. Dost ölkə Azərbaycan iqtisadiyyatının diversifikasiya, innovasiya və transformasiya sahələrinə xüsusi maraq göstərir. Azərbaycan–Çin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi isə ticari–iqtisadi əlaqələrin inkişafına geniş imkanlar açır. Təbii ki, bu şəraitin davamlı şəkildə formalaşmasına iki ölkə arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlər, həmçinin texniki–iqtisadi əməkdaşlığa dair sənədlər mühüm önəm daşıyır.

Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Çinlə ölkəmiz arasında son illərdə səmərəli investisiya əməkdaşlığı həyata keçirilib. Respublikamızda Çin investisiyalı 275 şirkət qeydiyyatdan keçib. Bundan başqa, Azərbaycanın işğaldan azad edilən ərazilərində başlanan infrastruktur layihələrində iştirak üçün Çin şirkətləri müraciət edib. "Huawei" şirkəti isə artıq bu regionda "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin icrasına başlayıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda respublikamızın ticarət dövriyyəsində Çin əsas ölkələr siyahısında 4-cü yerdə qərarlaşır. Təkcə bu il ərzində Azərbaycandan Çinə ixrac olunan mal və məhsulların dəyəri 64,5 milyon dollar təşkil edir. Qeyri-neft məhsullarının ixracı isə 23 milyon dolları keçir.

Çin şirkətlərinin Azərbaycanda fəaliyyəti sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələri əhatə edir. Dost ölkənin 1995-ci ildən indiyədək respublikamıza yatırdığı birbaşa investisiyanın həcmi isə 920 milyon dollara çatır.

Çin şirkətlərinin ölkəmizə olan böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiya, sahibkarlıq və biliyə əsaslanan sənaye üzərində inkişaf edən iqtisadiyyata uğurla keçid edib. Tətbiq edilən vergi güzəştləri, güzəştli kreditlər, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət–özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılıb. İşğaldan azad edilən ərazilərdə vergi güzəştləri, sosial sığorta müavinətləri, təkmil investisiya təşviqi mexanizmləri, kommunal xidmətlər üzrə güzəştlər, əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və sadələşdirilən iş prosedurları ilə bağlı əlverişli şərtlər Çin şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə marağını şərtləndirib.

Azərbaycan dost ölkə ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində də sıx əməkdaşlıq qurub. Hər iki dövlət tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Çin bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək. İqtisadiyyat naziri Mikayıl Cabbarov həmin Ticarət Evinin açılışında vurğuladığı kimi, dost ölkədə sayca 4-cü ticarət evi olacaq bu iqtisadi–ticari mərkəz ticarət və mədəni mübadilə üçün dinamik platforma rolunu oynayacaq.

Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyənləşdirilib. Bununla yanaşı, dövlətimizin başçısının tapşırığına əsasən, işğaldan azad olunan ərazilərdə "Yaşıl enerji" zonasının yaradılması nəzərdə tutulub. Bu baxımdan alternativ və bərpaolunan enerji sahəsində iki ölkə arasında böyük əməkdaşlıq potensialı mövcuddur və Azərbaycan bu sahəyə də çinli investorları dəvət edib.

***Vaqif BAYRAMOV***
**XQ**



# Qudyalçay üzərində yeni körpü salınır

**İntensiv yağıntılar nəticəsində yaranmış güclü sel suları respublika əhəmiyyətli Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 27-ci kilometrində, Qudyalçay üzərində yerləşən və 1974-cü ildə inşa edilən avtomobil körpüsünün çökməsinə səbəb olmuşdu.**

Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşları tərəfindən həmin yerə baxış keçirilərək yerində yeni avtomobil körpüsünün inşası qərarı verilib və tikintiyə başlanılıb. İşlərin gedişi ilə yaxından tanış olmaq məqsədilə ərazidə olub iş icraçısı Musayeddin Qurbanovla söhbət etdik. O dedi:

– Yeni istifadəyə veriləcək körpü hər biri 30 metr olmaqla ikiaşırımlı, uzunluğu 67, eni 15 metr olacaq. Eyni zamanda, hər iki tərəfdə eni 1 metr olmaqla piyada zolağı yaradılacaq.

Çayın üzərindəki köhnə korpünün yerində yenisinin bünövrəsi qoyulub. Çayın hər iki tərəfində dayaqların vurulması, armatura hörülməsi və betonlanması başa çatdırılıb. Paralel olaraq çayın içində dayaqların vurulması üçün hazırlıq işlərinə də başlanılıb. Dayaqlar hazır olduqdan sonra körpünün üstü qoyulacaq. Noyabr ayının sonuna kimi bütün ağır işlər görüləcək.

Hazırda tikintinin vaxtında başa çatdırılması üçün əraziyə cəlb olunan ağır texnika və canlı qüvvə gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Bu isə əhalinin qarşılaşdığı problemin tezliklə aradan qaldırılacağı əminliyi yaradır. Onu da qeyd edək ki, Xaçmaz Rayon İcra Hakimiyyətinin rəhbərliyi mütəmadi olaraq tikinti ərazisində olur, işlərin gedişi ilə yaxından maraqlanır.

Xaçmaz–Quba yolunun rayonun Armudpadar və Qımılqışlaq kəndlərindən keçən hissəsi məsafə baxımından uzaq və qismən yararsız olduğu üçün yeni körpünün inşası başa çatana qədər infrastrukturun dağıldığı ərazidən az kənarda–çay yatağının dayaz olduğu yerdə yeni müvəqqəti yolun istifadəyə verilməsi nəzərdə tutulub.

***Gülxar RƏHİMLİ***

Xaçmaz

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 370** **Bakı şəhəri, 17 oktyabr 2023-cü il**

***"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin strukturunun, hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibinin və sistemində ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 601 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2088 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1544; 2023, № 4, maddə 598; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 385 nömrəli, 2022-ci il 15 mart tarixli 88 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə maaşlarının məbləğləri"ndə aşağıdakı məzmunda qeyd edilsin (əlavə olunur, məxfi);

1.2. 5-ci hissə ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğlərində olan dəyişikliklə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2023-cü il 1 iyunun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 371** **Bakı şəhəri, 18 oktyabr 2023-cü il**

***"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddəti əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddəti əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373, № 6, maddə 792, № 8, maddə 1118, № 11, maddə 1386; 2021, № 4, maddə 398, № 7, maddə 861, № 8, maddə 964, № 10, maddə 1167, № 11, maddə 1291; 2022, № 2, maddə 174, № 4, maddə 372, № 6, maddə 670, № 8, maddə 964, № 10, maddə 1215, № 12, maddə 1532; 2023, № 1, maddə 138, № 3, maddələr 434, 440; № 5, maddə 721; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 yanvar tarixli 2 nömrəli və 2023-cü il 1 avqust tarixli 255 nömrəli qərarları) 2-ci hissəsində "2023-cü il oktyabrın 2-dək" sözləri "2024-cü il yanvarın 2-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ölkəmiz Fələstin xalqının dövlətçilik mübarizəsini dəstəkləyir




**Oktyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərinə işgüzar səfəri çərçivəsində İsrail–Fələstin münaqişə zonasında baş verən son hadisələrlə bağlı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İcraiyyə Komitəsinin nazirlər səviyyəsində keçirilən növbədənkənar iclasında iştirak və çıxış edib.**

İclasda bölgədəki təhlükəsizlik vəziyyətinin ciddi şəkildə pisləşməsi ilə nəticələnən son hadisələrin narahatlıq doğurduğunu bildirən nazir Ceyhun Bayramov ölkəmizin hərbi əməliyyatların və eskalasiyanın dayandırılmasına çağırış etdiyini diqqətə çatdırıb.

İslam həmrəyliyinə hər zaman sadiq qalan ölkəmizin Fələstin xalqının dövlətçilik mübarizəsini dəstəklədiyini qeyd edən nazir Ceyhun Bayramov Azərbaycanın beynəlxalq hüququn normaları, habelə müvafiq BMT qətnamələrinə uyğun olaraq İsrail–Fələstin münaqişəsinin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olması ilə iki dövlət prinsipi əsasında həllinə tərəfdar olduğunu qeyd edib.

Ceyhun Bayramov ölkəmizin fələstinli qaçqınlara dəstək məqsədilə BMT-nin Yaxın Şərq Agentliyinə 1,6 milyon dollar maliyyə töhfəsi verdiyini diqqətə çatdırıb.

Xüsusilə, Qoşulmama Hərəkatına sədrliyimiz dövründə ölkəmizin Fələstin probleminə xüsusi diqqət yetirdiyi, bu xüsusda Hərəkatın Fələstin üzrə Nazirlər Komitəsinin işinin gücləndirilməsi istiqamətində fəaliyyət göstərdiyi bildirilib.

Nazir Ceyhun Bayramov bundan sonra da Fələstin probleminin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə həllinə nail olmaq üçün səylərimizi davam etdirəcəyimizi bildirib.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin xarici işlər naziri Hakan Fidanla da görüşüb.**

Görüşdə ikitərəfli strateji müttəfiqlik münasibətlərinin gündəliyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, regionda baş verən son proseslər, eləcə də Azərbaycan–Ermənistan arasında sülh gündəliyinin perspektivləri müzakirə olunub.

***

**Xarici işlər naziri Ceyhun Bayramov dünən Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Xəlifə Şahin Əlmarar ilə də görüşüb.**

Görüşdə tərəflər arasında Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli və çoxtərəfli müstəvidə mövcud əməkdaşlıq gündəliyi, energetika və iqtisadi sahədə əməkdaşlıq məsələləri, İsrail–Fələstin münaqişə zonasında baş verən son hadisələr ətrafında fikir mübadiləsi aparılıb.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə də görüşüb.**

Görüş zamanı iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, çoxtərəfli regional əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Son zamanlar iki ölkə arasında artan ikitərəfli təmasların, ikitərəfli iqtisadi komissiya çərçivəsində keçirilmiş görüşlərin əhəmiyyəti qeyd olunub. Bu təmasların ölkələrimiz arasında gündəlikdə duran bəzi məsələlərin həlli üçün də vacib olduğu bildirilib.

**XQ**

# BMT komitəsi Qərbi Azərbaycan İcmasının qaldırdığı məsələlərin icrasını Ermənistandan tələb edib

**BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi Qərbi Azərbaycan İcmasının qaldırdığı məsələlərin icrasını Ermənistandan tələb edib. Bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.**

Açıqlamada qeyd olunub ki, İcmanın bildirdiyi bir çox iradlar, xüsusilə, Ermənistanın ayrı-seçkiliyə yol verməsi, milli azlıqların hüquqlarını, o cümlədən, mədəni hüquqları pozması və Azərbaycan tarixi irsinin qorunması sahəsində öhdəliklərini yerinə yetirməməsi, qaçqınların hüquqları ilə bağlı öhdəliklərinə biganə yanaşması kimi məsələlər komitənin yekun sənədində öz əksini tapıb.

**XQ**

**Milli Məclisdə**

# Sahibə Qafarova türkiyəli nazirlə görüşdü



**Dünən Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş ilə görüşüb.**

Görüşdə Azərbaycan–Türkiyə əlaqələrinin Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamına uyğun olaraq bütün sahələrdə inkişafından məmnunluq ifadə olunub, dövlət başçılarının siyasi iradəsi və qətiyyəti sayəsində bu əlaqələrin özünün ən yüksək zirvəsinə çatdığı vurğulanıb.

Azərbaycan və Türkiyənin ortaq tarixi, mədəniyyəti, dəyərləri ilə bağlı fikirlərini bildirən S.Qafarova qardaş xalqlarımızı birləşdirən ən mühüm dəyərlərdən biri kimi ailə dəyərlərinin əhəmiyyətini, cəmiyyətlərimizdə ailə institutuna, qadınların roluna göstərilən münasibəti qeyd edib, müasir qloballaşma şəraitində bu dəyərlərin qorunmasının vacibliyini vurğulayıb.

Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş qardaş Azərbaycanda olmaqdan məmnunluğunu, ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin daim inkişaf etdiyini, xoş gündə də, çətin gündə də bir yerdə olduğunu diqqətə çatdırıb.

**Ə.BƏDƏLOV**
**XQ**

# İspaniya Senatının anti-Azərbaycan xarakterli bəyanatına etiraz

**Azərbaycan–İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu İspaniya Senatının 17 oktyabr tarixli plenar iclasında qəbul etdiyi anti-Azərbaycan xarakterli bəyanatına qəti etirazını bildirib.**

İşçi qrupunun yaydığı sənəddə deyilir: İspaniya Senatına bəyan edirik ki, Azərbaycan dövlətinin həyata keçirdiyi antiterror tədbirləri məhz regional sülh, təhlükəsizlik və sabitlik qarşısında dayanan ən böyük maneəni – aqressiv separatizmi aradan qaldırdı. Bu gün hökumət Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası, Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində tədbirləri uğurla davam etdirir.

# Niderland parlamentinin qərəzli sənədləri şiddətlə qınanılıb

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi də oktyabrın 12-də Niderland Krallığı Parlamentinin Nümayəndələr Palatasının qərəzli və obyektivlikdən uzaq tövsiyə sənədləri qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayıb.**

Komitə ölkəmizə qarşı nümayiş etdirilən ədalətsiz yanaşmanı qətiyyətlə rədd edib və bunu Niderland Krallığı Parlamentinin Nümayəndələr Palatası daxilində demokratik dəyərlərin iflasa uğramasının bariz nümunəsi kimi qiymətləndirib.

**XQ**

# Azərbaycanın sosial xidmət təcrübəsi Litva və Estoniyada yüksək qiymətləndirilib



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndə heyəti "Pensiya sisteminin rəqəmsallaşdırılması" mövzusunda təqdimatlar keçirmək və təcrübə mübadiləsi aparmaq üçün Litva və Estoniyada səfərdə olub.**

Nümayəndə heyəti Litvanın Sosial Müdafiə və Əmək Nazirliyi yanında Dövlət Sosial Sığorta Fondu, İnformasiya Cəmiyyətinin İnkişafı Komitəsi və Dövlət Vergi Müfəttişliyində və Estoniyanın Elektron İdarəetmə Akademiyasında, həmçinin sosial sığorta və pensiya qurumlarında görüşlər keçirib.

Görüşlərdə nazirliyin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin direktoru Kənan Əkbərov son illər Azərbaycanda aparılan sosial islahatlar və əldə olunan uğurlar, habelə sosial sahə üzrə rəqəmsal nailiyyətlər, sosial ödənişlərin proaktiv təyinatı mexanizmləri barədə məlumatlar verib. Habelə e-sosial.az portalının və "Əmək və məşğulluq" altsisteminin innovativ yenilikləri və üstünlükləri, funksional imkanları diqqətə çatdırılıb.

Litva və Estoniyanın sosial xidmət mütəxəssisləri ölkəmizdə vətəndaşlara sosial yönümlü xidmətlərin e-platforma üzərindən təqdim olunmasını, eləcə də təyinatların mütərəqqi proaktiv üsulla aparılması təcrübəsini yüksək qiymətləndiriblər. Azərbaycan nümayəndə heyəti elektron xidmətlərə dair təqdimatlar edilib.

Görüşlər zamanı qarşılıqlı təcrübə mübadiləsi aparılıb, gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

***Z.BƏŞİRQIZI***
***XQ***

# “Ədibin evi”ndə unudulmaz görüşlər

**Qədim İçərişəhərin Kiçik Qala küçəsində yazı-pozu adamları üçün sevimli bir ünvan var: “Ədibin Evi”. Görkəmli yazıçı Mir Cəlal Paşayev 1920–1940-cı illərdə bu evdə yaşayıb-yaradıb və ona şöhrət gətirən bır sıra əsərlərini – “Bir gəncin manifesti”, “Dirilən adam” romanlarını, bir çox satirik hekayələrini və “Füzuli sənətkarlığı” monoqrafiyasını burada ərsəyə gətirib.**






Yazdıqlarını çap maşınında yığdırmaq üçün tez-tez “Kommunist” qəzeti (indiki “Xalq qəzeti”) redaksiyasına gedən və orada tanış olduğu Püstəxanımla tanış olub ona könül verən Mir Cəlalın ilk ailə ocağı məhz bu ünvandır. Onlar bu evin 1-ci mərtəbəsindəki 2 otaqlı kiçik mənzildə yaşayıblar. İlk övladları bu evdə dünyaya gəlib. 20 il ərzində bu evin divarlarına nə qədər acılı-şirinli xatirə hopub. Bu evin çoxlu möhtərəm qonaqları olub. Mir Cəlal müəllim tələbələri ilə öz evində ədəbiyyat diskussiyaları aparıb, onları yedizdirib razı halda evlərinə yola salıb. Sonralar ədibin yazdığı “Bakı görüşləri” adlı xatirə qeydlərində bu ünvan da xatırlanır.

Bütün bu xatirələri qorumaq və ədəbiyyatımıza töhfə vermək üçün 2017-ci ildə ədibin oğlu Arif Paşayevin təşəbbüsü ilə ev təmir olunub və “Ədibin Evi” Ədəbiyyata Dəstək Fondu kimi fəaliyyətə başlayıb. “Ədibin Evi”nin qapısı sahibinin qəlbi kimi hamıya açıqdır. Ədəbiyyat adamları, tələbələr, şagirdlər, gənclər, sadə adamlar tez-tez bura gəlirlər. Yazıçının həyat və fəaliyyəti, yaşadığı dövrün ədəbi mühitinə bələd olmaq üçün nadir eksponatlarla tanış olurlar. “Ədibin Evi”nin ədəbiyyatsevərlərin ixtiyarına verilməsində məqsəd bu məkanı ədəbiyyat, mədəniyyət ocağına çevirməkdir.

“Ədibin Evi”nin Bakı Dövlət Universitetinin kafedra müdiri Ədibə Paşayeva, həmin universitetin professoru Təhsin Mütəllimov və ADA Universitetinin rektoru Hafiz Paşayevdən ibarət mükəmməl Himayəçilik Şurası var. Məkanın icraçı direktoru Şəfəq Mehrəliyeva qonaqları daim gülər üzlə qarşılayır, həvəslə yazıçının həyat və yaradıcılığı haqqında məlumat verir, ASAN Radio ilə “Ədibin Evi”nin birgə media layihəsi əsasında reallaşan “Ədibin Evindən Hekayələr”ə baxmağa dəvət edir.

“Ədibin Evi”ndə tez-tez maraqlı ədəbi tədbirlər keçirilir. Aprelin 26-da Mir Cəlal Paşayevin burada qeyd edilən 115 illik yubileyi xüsusilə yaddaqalan olub. Görkəmli ədibin xeyirxahlıq və mərhəmətdən, səmimiyyət və insanlıq duyğularından nur almış bu ünvan ilk andanca ziyarətçilərinə könül rahatlığı bəxş edir.

Bu günlərdə “Ədibin evi”ndə oxucular şair Elçin Mirzəbəyliyə həsr olunmuş “Özgə adam” poeziya axşamına toplaşıblar. Elçin müəllimin həmin görüş barədə təəssüratlarını təqdim edirik: “Meqapolsin səs-küyündən özünə çəkilən İçərişəhərin divarları arasında kiçik bir ədəbiyyat məbədidir “Ədibin Evi”. Qapısını açıb içəri daxil olan kimi tamamilə fərqli bir ovqata köklənirsən. Hətta ruhuna, iç dünyasına İçərişəhərin divarlarından da möhkəm sədd çəkən insan da yumşalır burada, kövrək, lirik duyğuların ayrılmaz bir parçasına çevrilir.

Ana dilimizin cilalanmasında və zənginləşməsində müstəsna xidmətləri olan böyük ədibimiz Mir Cəlal bizi bu gün də heyrətləndirən əsərlərinin bir qismini bu ünvanda yaradıb. “Ədibin Evi”, sözün əsl mənasında, ədəbiyyat vadisidir. Çiçək-çiçək duyğular cücərir hər qarışından...

Dünən bu doğma ünvanda ilk poeziya axşamı gerçəkləşdi. Dəqiqələrin, saatların doğmalıq şirinliyinə necə əridiyindən xəbərimiz olmadı. Mir Cəlalın İçərişəhərin əsrarəngiz guşələrindən birində yerləşən kiçik evini ədəbiyyat məbədinə çevirən varislərinə, “Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyevaya mənə bu imkanı yaratdıqları üçün minnətdaram”.

“Ədibin Evi”ndə təşkil olunan poeziya axşamının adı “Özgə adam” olsa da, heç kəs burada özünü özgə hiss etmədi...

***Ə.DOSTƏLİ***
***XQ***

**Hec kim unudulmur**

# Yeddi igiddən biri

**Sabir Əziz oğlunu uşaqlığından tanıyırdım. 1969-cu il iyulun 26-da Zəngilan şəhərində anadan olmuşdu. Orta məktəbi 1986-cı ildə bitirdi. Sənədlərini Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna verdi, müsabiqədən keçə bilmədi. Zəngilan Rayon Hərbi Komissarlığının göndərişi ilə Əli-Bayramlıda (indiki Şirvan şəhərində) sürücülük peşəsinə yiyələndi. 1987-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tikinti fakültəsinə qiyabi daxil oldu. Birinci kursu bitirəndən sonra 1988-ci ilin oktyabrında hərbi xidmətə çağırıldı...**



Adətən, atalar oğullara örnək olurlar. Hərdən atanın peşəsi oğulun düşüncələrinin səyyarəsinə çevrilir. Sabir hərbi xidmətdən sonra 30 ildən çox daxili işlər orqanlarında xidmət etmiş atası Əziz Paşayevin yolunu seçir. Hərbi xidmətdən tərxis edildikdən sonra, 1990-cı ilin avqustun 12-də Zəngilan rayon milis şöbəsinə patrul xidməti üzrə inspektor təyin edilir...

Ermənistanın Azərbaycana qarşı ərazi iddiası ilə başlamaq istədiyi müharibə ərəfəsində düşmən Zəngilana vaxtaşırı həmlələr, hücumlar edirdi. Zəngilanı rayon ərazi özünümüdafiə taboru, bir də milis işçiləri qoruyurdular. Çavuş Sabir Paşayev də Zəngilanı qoruyanların sırasında idi...

Yaxşı iş, nümunəvi xidmət heç zaman diqqətdən yayınmır. Sabir Paşayevin xidməti, bu mənada düşmənlə döyüşləri onun xidmətində ən etibarlı zəmanət oldu. 1992-ci ildə ona “kiçik leytenant” rütbəsi verildi, Məmmədbəyli kəndini və Həkəri stansiyasını əhatə edən geniş bir əraziyə sahə müvəkkili təyin edildi.

1993-cü il aprelin 10-da gedən döyüşlərdə Sabir də yaralanmışdı, başqa bir döyüşçünün də yaralandığını görəndə, onu düşmənin güclü atəşi altından çıxarda bilmişdi. Müalicədən sonra yenə döyüşlərə qayıtmışdı. Nümunəvi xidməti döyüşdə igidliyi və qorxmazlığı yüksək qiymətləndirilərək, ona növbədənkənar “leytenant” rütbəsi təqdim olunmuşdu...

Sabir Paşayev məzuniyyətdə idi. Yenicə dünyaya gəlmiş qızının yanında – məcburi köçkün kimi müvəqqəti məskunlaşdıqları Bakıda bir neçə gün qaldıqdan sonra Zəngilana qayıdan gün – oktyabrın 25-də düşmən Zəngilanı mühasirəyə almışdı.

Cəbhə xətti 150 kilometrə qədər uzanmışdı. Alayın bütün bölmələri müdafiə mövqeyində yerləşdirilmişdi. Müdafiə olunmaq üçün qüvvə çatışmırdı. Olduqca çətin şəraitdə Baloğlan Süleymanovun rəhbərlik etdiyi kəşfiyyat bölüyü Cəbrayıl rayonunun Dərzili kəndində müdafiə mövqeyi tutmuşdu.

Ermənilər kəşfiyyat bölüyünün üzərinə 1 motoatıcı taboru və 1 tank bölüyü ilə hücuma keçmişdilər. Lakin ciddi müqavimətlə qarşılaşmış və itki verərək geri qayıtmışdılar. Yenidən qüvvələrini cəmləşdirən düşmənin bir neçə tankı müdafiə zolağını yararaq, Baloğlanın bölüyünə tərəf irəlilədi. Düşmən tankları bu dəfə səngərləri hədəfə almağa başladı. Baloğlan Süleymanov, Emin Nəsibov, Qasım Mönsümov, Bəhram Adıgözəlov, Əlibaba Məmmədov və digərləri düşmənlə bu qeyri-bərabər döyüşdə şəhid oldu və onlarca əsgər yaralandı. Təminat bölüyünün əsgərləri də kömək üçün oraya göndərildi. Onlar da şəhid oldular.

Ermənilərin hücumunun qarşısını almaq üçün oktyabrın 25-də leytenant Sabir Paşayevin rəhbərliyi ilə altı nəfər milis əməkdaşı – baş çavuş Elşad Nərimanov, çavuşlar İsmayıl İsmayılov, İlham Quliyev, Aqil Quliyev, Möhlət İsmayılov, Fazil Bəşirov ilə birgə oraya döyüşə göndərildi. Onlar qəhrəmanlıqla döyüşdülər.

Düşmənin qarşısını kəsənlərin sırasında bu yeddi milis əməkdaşı da var idi. Düşmən irəliləyə bilmirdi. Ermənilərin bir neçə döyüş texnikası, onlarca döyüşçüsü məhv edilmişdi. Onlar döyüşçülərimizin müqavimətini qıra bilmirdilər. Az sonra əlavə kömək alan düşmən fəallaşdı, manevr edərək döyüşənlərimizi mühasirəyə aldı. Təslim olmadılar. Döyüşdülər. Amma, mühasirədən çıxa bilmədilər....

Hərdən 7 rəqəmi mənə "Yeddi oğul istərəm" bədii filmini xatırladır.

Vətən naminə ölümdən qorxmadan fədakarlıqla sinələrini sipər edən yurdsevər yeddi oğul da düşmənlə ölüm-dirim savaşına atıldı. Yeddi milis əməkdaşının taleyi həmin gün “itkinlik dumanı”na büründü. Şəhidmi oldular, əsirmi düşdülər?

***

Sabirin qızı Vəfa atasını görməyib. Uşaqlığında babası Əzizdən, nənəsi Qənfilədən qəhərlənə-qəhərlənə soruşardı:

– Atam nə vaxt gələcək?

“Leytenant Sabir Paşayevin qızıyam...” – tələbə yoldaşlarına özünü belə tanıdardı. Leytenant Sabir Paşayevin kim olduğunu soruşana bircə kəlmə deyərdi: “Döyüşçü...”. Yoldaşları gerçəkliyi sonralar bilmişdilər. Biləndə hamısının kiprikləri nəmlənmişdi...

O tarixdən 31 il keçir. O günü unutmamışıq. O tarix unudulmayacaq.

**Bayram MƏMMƏDOV,**
**istefada olan polkovnik-leytenant**

# Baş prokuror Çində işgüzar səfərdədir



**Baş prokuror Kamran Əliyev Pekində işgüzar səfərdədir. Onun rəhbərlik etdiyi nümayəndə heyəti 30-dan çox ölkənin korrupsiyaya qarşı mübarizə qurumlarının, nüfuzlu beynəlxalq təşkilatların və şirkətlərin rəhbərlərinin iştirak etdiyi Tematik Forumun işində iştirak edib.**

Baş prokuror çıxış edərək Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizənin 5 əsas sütun – hüquqi baza, şəffaflıq biznes iqlimi, səmərəli ədalət mühakiməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə qurumları və beynəlxalq əməkdaşlıq fəlsəfəsinə uyğun olaraq mərhələli şəkildə həyata keçirildiyi, bu prosesin bu gün də qətiyyət və uğurla davam etdirildiyi barədə danışıb.

Səfər çərçivəsində Kamran Əliyev Çin, Özbəkistan, Malayziya, Pakistan, Qazaxıstan, Belarus, Argentina, Kamboca, Misir və sair ölkələrdən olan həmkarları ilə qarşılıqlı maraq doğuran görüşlər keçirib.

**XQ**

# Türkiyə Ali Məhkəməsinin sədri Azərbaycanda



**Ölkəmizdə səfərdə olan Türkiyə Ali Məhkəməsinin (Yargıtay) sədri Mehmet Akarcanın başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmədə olub.**

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov ölkələrimiz arasında məhkəmə sahəsində əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu və uğurla inkişaf etdiyini qeyd edib. Qeyd edilib ki, iki ölkə arasında əlaqələrin möhkəmlənməsində dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın səmimi qardaşlıq münasibətlərinin xüsusi rolu var.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Mehmet Akarca ikitərəfli əlaqələri yüksək qiymətləndirərək, bu münasibətlərin inkişafına xüsusi diqqət yetirildiyini qeyd edib.

# TBMM-in Baş katibi Qərbi Azərbaycan İcmasında



**Oktyabrın 18-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Baş katibi Talip Uzunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Qərbi Azərbaycan İcmasının rəhbərliyi arasında görüş keçirilib.**

İcmanın İdarə Heyətinin sədri Əziz Ələkbərli son 200 ildə Azərbaycan xalqının üzləşdiyi müsibətlər barədə danışıb, ötən əsrdə Qərbi azərbaycanlıların Ermənistandan dörd dəfə deportasiya edildiyini, soyqırımlara məruz qaldıqlarını söyləyib.

İcmanın Ağsaqqallar Şurasının sədri Əhliman Əmiraslanov və Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı qonaqlara soydaşlarımızın yaşadıqları ağrı-acı, eləcə də deportasiyalar zamanı mədəni irsimizə dəyən zərər barədə məlumat veriblər.

Türkiyə Böyük Millət Məclisinin Baş katibi Talip Uzun verilən məlumatların onları təsirləndirdiyini bildirib, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu, ağrı-acısını bölüşdüyünü deyib. “Bir millət, iki dövlət” fəlsəfəsini dilə gətirən Baş katib Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq modelinin dünyanın başqa heç bir yerində olmadığını vurğulayıb.

**XQ**

Qəhrəmanlıq xronikası

# "Oğul"luq zirvəsində əbədiyyət





(əvvəli 1-ci səhifədə)

Erməni tərəfdən Qarabağ döyüşlərində olub səfər xatirələrini yazan rusiyalı jurnalistin həmin reportajına istinad edib onun haqqında AzTV efirindən soydaşımızın hünərindən söz açmışdım. Konstantin Smirnov adlı müxbirin "Oqonyok" jurnalının 1992-ci ilin aprel sayında (№ 14-15) dərc olunmuş "Qorxu" sərlövhəli həmin yazısında, hətta təslim olduqda belə Azərbaycan bayrağını düşmənə verməyən Natiq Qasımovun şücaətindən bəhs edilirdi. Jurnalda əlində Azərbaycan bayrağını dəyanətlə saxlayan Natiq Qasımovun Ermənistan hərbçilərinin əhatəsindəki qorxusaçan fotosu da yer almışdı. Nədənsə, Natiq Qasımov adlı bu cəsur döyüşçünün əsirlikdən geri qayıdacağına, onun qəhrəmanlığı haqda özündən eşidib təfərrüatı ilə yazacağıma çox inanırdım. İllər keçdi və mənim ümidlərim doğrulmasa da, Natiq dillərdə dolaşan cəsurluq hekayəti ilə qəlblərdə əbədiləşdi.

Bu günlərsə igid soydaşımız Nizami Kino Mərkəzində nümayiş olunan "Oğul" sənədli filmində əks olunan ölməzlik dastanı ilə geri döndü. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi, "LİBRAFF" kitab mağazalar şəbəkəsinin və TEAS Press Nəşriyyat evinin təşkilati dəstəyi ilə Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalı olan "Oğul" sənədli filmini rejissor və ssenari müəllifi Karan Sinqh italiyalı hərbi fotoreportyor Enriko Sarsininin dərc olunmamış fotoları əsasında ekranlaşdırıb. Enriko Sarsinin Qarabağda baş verənlərlə bağlı danışdığı olduqca kədərli, lakin parlaq hekayəti dünyaya çatdırmaq qərarına gələn rejissor həmin hadisəni və qəhrəmanın aqibətini aydınlaşdırmaq üçün 3 il Azərbaycan, Ermənistan, İtaliya, Böyük Britaniya və Rusiyada şahidlərlə görüşüb, onların müsahibələrini lentə alıb.

Əcnəbi rejissor Birinci Qarabağ müharibəsi zamanı hərbi əməliyyatların gedişatında 6 döyüş yoldaşını itirdikdən sonra 5 gün təkbaşına müdafiə etdiyi Alban kilsəsində mühasirədə qalan Natiqin cəsurluğunu böyük ustalıqla ekranlaşdırıb. O, həm ölkəmizdə, həm də erməni tərəfdə Natiqin izi ilə çəkilişlər apararaq qəhrəmanının cəsarətli döyüş yoluna işıq salıb...

Filmdə Natiq Qasımovun erməni əsirliyində dindirilməsi ilə bağlı məqamlar və bu dindirilmələrdə ermənilərin səhra komandiri Vitali Balasanyanın da iştirak etməsinə dair faktlar yer alır. Şahidlərin məlumatına görə, erməni hərbçi Vitali Balasanyan Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyatda olan Natiq Qasımovu əsirlikdə olduğu müddətdə işgəncə ilə qətlə yetirib. İstedadlı rejissor filmdə müharibənin acı həqiqətlərini, necə deyərlər, min üzünü göstərməklə yanaşı, qəddar erməni xislətini də ustalıqla aşkara çıxarıb...

"Oğul" adlandırılan filmi izləyərkən, yaradıcı heyətin əksəriyyətinin əcnəbi vətəndaşlar olmasına baxmayaraq, ustalıqla qurulmuş süjet xətti boyu dahi Məmməd Arazın dillər əzbəri olan "Vətən mənə oğul desə nə dərdim..." misralı şeiri qulaqlarımda leytmotiv kimi səslənirdi. Film bitsə də, diqqətlə izləsəm də erməni quldurlarının əlinə keçəndən sonra da onların əhatəsində əlindəki üçrəngli bayrağımızla irəliləyən Natiqin məşhur fotoandakı təsviri gözüm önündən getmirdi.

Natiqin faciəvi aqibəti barədə kədərli filmi izləsəm də illər əvvəl gördüyüm o qürurverici foto gözüm önündə ilğıma dönmüşdü. "Kaş ki, Natiq və yüzlərlə Vətən qəhrəmanı o bayrağın Şuşada, Xocalıda, Xankəndidə necə qürurla dalğalandığını da görəydilər! – deyə iftixarla köks ötürürəm. Ətrafımdakıların da köks dolusu nəfəs aldıqlarını görüncə hamının Azərbaycanın dünyanı heyran qoyan oğlu barədə filmi nəfəs dərmədən izlədiyini yəqin etdim.

***

Təqdimatda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Birinci Qarabağ müharibəsinin şəhidi Natiq Qasımovun ailə üzvləri, rəsmi şəxslər, tanınmış sənət adamları və digər qonaqlar iştirak edirdilər.

***Rahib QƏRİB***
***XQ***

# Qocaman bəstəkar-pedaqoqa ehtiram

**Naxçıvan Dövlət Universitetində Xalq artisti, Əməkdar incəsənət xadimi, professor Tofiq Bakıxanovun müəllimlik fəaliyyətinin 70 illiyinə həsr olunmuş konsert proqramı təşkil olunub.**



Universitetin rektoru Elbrus İsayev bəstəkarın həyat və yaradıcılığından bəhs edib. Qeyd edilib ki, Tofiq Bakıxanov əsərləri ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafına xidmət edən böyük bəstəkar, mahir ifaçılıq imkanlarına malik skripkaçı, milli musiqiçi kadrların yetişməsində əməyi olan gözəl pedaqoq, professor, musiqi sənətinin müxtəlif problemlərinə həsr olunmuş elmi-publisistik məqalələrin müəllifi, milli musiqimizi, incəsənətimizi, mədəniyyətimizi xarici ölkələrdə geniş təbliğ edən fəal ictimai xadim kimi tanınır.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Məmmədova qeyd edib ki, Tofiq Bakıxanov görkəmli bəstəkar, Azərbaycan milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin xeyir-duası ilə musiqi aləminə gəlib. Bildirilib ki, Tofiq Bakıxanovun yaradıcılığı çoxşaxəli və məhsuldardır. Bəstəkar skripka, viola, violonçel, fleyta ilə fortepiano üçün 20-dən artıq sonatanın, trio, kvartet, kvintetlərin, müxtəlif alətlər ilə simfonik orkestr üçün 26 konsertin müəllifidir. O, Azərbaycanda ilk birpərdəli baletin yaradıcısı olub. Bəstəkar, eyni zamanda, 3 balet, 3 musiqili komediya, 100-ə qədər mahnı və romans bəstələyib. Simfonik musiqi sahəsi isə bəstəkarın yaradıcılıq irsində 8 simfoniya, 5 simfonik muğam, 5 simfonik poema, simfonik süitalar, uvertüralar və s. əsərlərlə təmsil olunub.

Məclisin bədii hissəsində Tofiq Bakıxanovun əsərlərindən ibarət konsert təqdim olunub. Respublika və beynəlxalq müsabiqələr laureatı Firuzə Qədimalıyevanın müşayiəti ilə Azərbaycan Milli Konservatoriyasının magistrantı Hüseynağa Səmədovun tarda ifası tamaşaçılara xoş ovqat bəxş edib. Konsertdə "Xeyir və Şər" baletindən "Qəhrəmanın çalışması", "Vals" "Şərq poeması" baletindən "Qızlar rəqsi", "Xeyir və Şər" baletindən rəqs və digər musiqiləri yüksək peşkarlıqla ifa edilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# "Coğrafiya müəllimi" ekrana qayıtdı

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyi tərəfindən hazırlanmış "Coğrafiya müəllimi" adlı qısametrajlı bədii-sənədli filmin "CinemaPlus" mərkəzində təqdimat mərasimi küçirilib.**

Bu, bədii-sənədli janrda müharibə mövzusunda çəkilən qısametrajlı filmdir. Hansısa ədəbi əsərin deyil, məhz real həyat hadisəsinin kinoya gətirilməsi ikiqat sənət uğurudur. Birinci Qarabağ müharibəsində könüllü olaraq döyüşlərə atılmış Şuşa sakini, 1992-ci ilin mayında bu şəhərin işğalı zamanı itkin düşmüş, hələ də taleyindən bir xəbər olmayan Nəsir Hüseynqulu oğlu Bağırovun təsirli həyat hekayəsindən bəhs edən bu ekran işi onun oğlunun daxili monoloqları üzərində qurulub.

...Ailəsi ilə vidalaşıb döyüşlərə yollanan atanın (İsmayıl Kərimovun ifasında) itkin düşməsinə balaca oğlu (Nəsir Bağırovun ifasında) inanmır və fikrini belə əsaslandırır: "Atam coğrafiya müəllimidir, bütün ölkələri, şəhərləri tanıyır, o, necə itkin düşə bilər?" Burada Əli Kərimin "Coğrafiya müəlliminin şəhadət barmağı haqqında ballada" şeiri yada düşür. İkinci Dünya müharibəsində şəhərlərin işğalı ilə "barışmayan" barmağını xəritədən çəkmək istəməyən müəllimin obrazı ilə Qarabağ müharibəsində itkin düşən coğrafiya müəllimi Nəsir Bağırovun acı hekayəsi arasında paralellər də aparmaq olar. Hər bir halda hədəf mövcud coğrafiyaları zor gücünə dəyişmək istəyən istilaçılardır.

Ssenari müəllifi Mübariz Əsgərov, quruluşçu rejissoru Xəyyam Abdullazadə, operatoru Əhməd Barasov olan "Coğrafiya müəllimi" filmi Qarabağ savaşında itkin düşmüş 4 minədək Azərbaycan vətəndaşının narahat ruhuna həsr edilib. İctimai baxış zamanı filmin təsirli, rəmzi səciyyəli epizodları böyük maraq və həyəcanla izlənilib. Film xarici auditoriyada da nümayiş edilmək üçün ingilis dilində titrlər – alt yazılarla müşayiət olunur.

**Ssenari müəllifi Mübariz Əsgərov XQ-yə müsahibəsində ekran işinin tarixçəsi barədə dedi:**

– Bundan öncə müharibə mövzusunda "İşgəncələr məbədi – Şuşa həbsxanası" adlı sənədli film də çəkmişik. Odur ki, hər çətinliyə əvvəlcədən hazır olduq. İlk növbədə, 31 il əvvəlki görkəmdə kənd evi axtardıq və Quba rayonunun Qonaqkənd qəsəbəsində tapdlıq. Xüsusi musiqi, müasir çəkiliş avadanlığı əldə etdik. Film cəmi 6 dəqiqə olduğuna görə, yaradıcı heyət kadrları zərgər dəqiqliyi ilə seçib-sonaladı. Aktyor seçiminə də ciddi fikir verdik. Yəqin, diqqət etdiniz: oğul rolunda çəkilən, Bakıdakı 167 saylı tam orta məktəbin 3-cü sinif şagirdi olan Nəsir Bağırov itkin qəhrəmanın ad və soyadını daşıyır. Çünki onun doğmaca nəvəsidir.

**Quruluşçu rejissor Xəyyam Abdullazadə də film haqqında fikirlərini bizimlə bölüşdü:**

– "Coğrafiya müəllimi" müharibə itkinlərimiz haqqında çəkilmiş ilk kino işlərindən biridir. Təqdimat mərasimində də dedim ki, nə qədər çətin olsa da, bu mövzuda tammetrajlı filmlər çəkmək istərdik.



Qoy, dünya erməni faşizminin iç üzünün konkret görüntülərdə şahidi olsun. Burada isə biz əlimizdən gələni etdik ki, nəsə alınsın. İlkin tamaşaçı reaksiyaları göstərdi ki, buna nail ola bilmişik. Mən filmin real baş qəhrəmanı olan balaca Nəsirə də "afərin" demək istəyirəm. İlk dəfə peşəkar kino kamerası qarşısına çıxsa da, çəkiliş dubllarından yorulsa da, ruhdan düşmədi, çətinliklərə sinə gərə bildi. Nəhayət, filmin ərsəyə gəlməsinə dəstək olan hər kəsə minnətdarlığımı bildirirəm.

Onu da qeyd edək ki, "Coğrafiya müəllimi"nə dəstək verən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, şübhəsiz, itkinlər mövzusunda uğurlu layihələrin maliyyələşdirilməsini bundan sonra da davam etdirəcək. Agentlik 2024-cü il üçün elan etdiyi müsabiqələrdə əsas istiqamətlərdən biri kimi itkin, əsir və girovların taleyi ilə əlaqədar təşəbbüslərə, onların ailələri ilə işə, dünyanın müxtəlif ölkələrində bu kateqoriyadan olan şəxslərin hüquq və azadlıqlarının birgə müdafiəsinə dair layihə təkliflərinə üstünlük verəcək.

***Ə.ƏLİYEV***
***XQ***

Şair Nəbi Borçalı – 150

**Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Borçalının qüdrətli söz ustadı Şair Nəbi Borçalının 150 illik yubileyi təntənə ilə qeyd edildi. Mərasimdə ölkə ictimaiyyətinin nümayəndələri ilə yanaşı, Borçalıdan gəlmiş qonaqlar da iştirak edirdilər.**

# Saz-söz məktəbinin ustad yetirməsi



**Məcisi Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbiyev açaraq Şair Nəbinin həyat və yaradıcılığı haqqında məlumat verdi. Azərbaycan Aşıqlar Birliyinin sədri, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı görkəmli söz ustadının ədəbi irsini yüksək dəyərləndirdi:**

– Hər hansı bir bölgənin, mahalın aşıq sənətindən söhbət açanda o bölgənin sənət statusunu daşıyan rəmzi obrazı göz önünə gəlir. Məsələn, Göyçədə Aşıq Ələsgərin, Təbriz–Qaradağda Xəstə Qasımın, Tufarqanlı Abbasın, Şirvanda Mirzə Bilalın, Gəncəbasarda Şəmkirli və Bozalqanlı Hüseynlərin, Borçalıda isə Şair Nəbi Borçalının obrazı gözlərimiz önündə dayanır. Şair Nəbinin sənət irsinin bir hissəsi onun poetik yaradıcılığı bir hissəsi isə ustadlıq məktəbidir ki, axarı bu günümüzə gəlib çatıb.

Borçalı elə bir mənəvi ocaqdır ki, onun hərarəti150 ilə sığışmır. Bu mahalın qədimliyindən gələn enerjini Şair Nəbinin irsində görürük. Onun 200-dən çox şeiri bu günümüzə çatıb. Bu şeirlərin araya-ərsəyə gətirilməsində əməyi olan unudulmaz ziyalımız Hüseynqulu Məmmədlini xatırlamaya bilmərik. Onun atası və babası da bu irsin qədirbilən daşıyıcıları olublar.

Hüseynqulu müəllim Faxralı orta məktəbinin direktoru işlədiyi illərdə, eləcə də Bakıda yaşadığı dövrdə bir ziyalı kimi bu irsi zərrə-zərrə yığıb və qoruyub-saxlayıb. Onun oğlu, görkəmli folklorşünas, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədlinin də əməyi xüsusi qeyd edilməlidir. O, Hüseynqulu müəllimlə birlikdə Şair Nəbinin şeirlərinin xeyli hissəsini kitab halında nəşr etdirib. Bu mənada Hüseynqulu müəllimin ailə ocağı, bütövlükdə, Nəbi Faxralı–Nəbi Miskin–Nəbi Borçalı yaradıcılığına köklənib və bu irsi bizlərə çatdırıb. Biz dönə-dönə Şair Nəbi Borçalının kitablarını oxumuşuq, onun irsi ilə yaxından tanış olmuşuq. Bu irsin içərisindən çox mükəmməl bir şairin obrazı canlanır.

Şair Nəbi Borçalının sorağını ilk dəfə geniş aləmə böyük Səməd Vurğun yayıb. Şair Nəbinin vəfatından on il sonra – 1955-ci ildə Səməd Vurğun Borçalıya gedib və Faxralıda bir saz-söz məclisində olub. Xalq şairi Faxralı Aşıq Nəsibin ifasında Şair Nəbinin "Dünya" şeirini dinləyib. Dünyanı düşünən və zaman–məkan fəlsəfəsini dərindən dərk eləyən şairin bu şeiri Səməd Vurğunu çox təsirləndirib. Ona görə də həmin məclisdə üzünü Faxralı ziyalılarına tutaraq deyib ki, Şair Nəbinin irsini mütləq toplamaq lazımdır. Bundan sonra Hüseynqulu Məmmədli onun şeirlərini toplamağa başlayıb.

Çıxışının sonunda Məhərrəm Qasımlı tədbirin keçirilməsində əməyi olanlara, xüsusilə, Faxralının dəyərli ziyalı oğlu Ənvər Xəlilova minnətdarlığını bildirdi. Aşıqlar Birliyinin sədri qeyd etdi ki, bu gün Şair Nəbinin şeirlərini təkcə Borçalı aşıqları deyil, Tovuz, Qazax, Gədəbəy, Laçın, Kəlbəcər və digər bölgələrinin saz-söz ustaları da sevə-sevə oxuyurlar. Şairin yaradıcılığını uca tutan Təbriz–Qaradağ aşıqları məlum səbəblərdən bu yubileyə gələ bilməyiblər. Amma tədbirə Azərbaycanın, demək olar ki, hər yerindən aşıqlar dəvət edilib. Onların ifasında Şair Nəbinin bir-birindən gözəl şeirləri yubiley mərasiminə sənətkarın ruhunu, nəfəsini gətirəcək.

"Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov Şair Nəbi yaradıcılığında elmi motivlərdən, ustad sənətkarın şifahi xalq ədəbiyyatına töhfələrindən, türk dünyasının söz sənətində xüsusi yeri olduğundan söz açdı. Qeyd etdi ki, Şair Nəbi Faxralının hələ yetərincə öyrənilməli, ətraflı təhlil və tədqiq olunmalı çox şeirləri var. Onun haqqı var ki, doğma yurdunda heykəli ucaldılsın. Əslində, biz belə bir təşəbbüs səsləndirmişik və abidənin bəzi eskizləri də hazırlanıb.

Şair Nəbi indiki anlamda oxuyub yaza bilməsə də, fitrətən deyirdi: "Nəbiyəm, dərsimi oxudum kamil..." Çünki o, ağız ədəbiyyatı məktəbindən eşitdiklərini yaddaşına yazırdı. Hətta, məclislərin birində ustad Ələsgərin qıfılbəndini açıb. Bu istedadı ilə elin böyük hörmətini qazanıb, yığıncaqlarda başa çəkilib. Nurlu zəkası, şairlik təbi ona daha böyük şöhrət gətirib. Ustadı olmasa da, dövrünün sənət səltənətini özünəməxsus ustalıqla yaratdığı şeirləri, deyişmələri, dastanları ilə daha da zənginləşdirib.




Şair Nəbi yoxsul bir ailədə dünyaya göz açıb. Kiçik yaşlarından ağır zəhmətə qatlaşıb. Varlıların qapısında nökərçilik edib, savad almağa, yazı-pozu öyrənməyə macalı olmayıb. Onun ilk qoşqularının yaranması da həmin illərə təsadüf edir. Sonralar Borçalı kəndlərinin toy məclislərində peşəkar söz adamı kimi tanınmağa başlayıb. Beləcə ad-san qazanan Şair Nəbi ömrünün sonuna kimi doğma kəndi Faxralıda yaşayıb və 72 yaşında orada vəfat edib.

Yubiley məclisinin bədii hissəsində aşıqlar və bədii qiraətçilər meydanı ələ aldılar. Aşıq Ramin Qarayevin "Göyçəgülü", Nazim Bahadıroğlunun "Oğuzoğlu", Şaiq İncəlinin "Ağır şərili", Cahangir Quliyevin "Yurd yeri", İmran Xəlilovun "Mirzəcanı", Əşrəf Qəriboğlunun "Bayramı", Nəbi Nağıyevin "İrəvan çuxuru", Qabil Abduyevin "Məmmədbağırı", Avdı Musayevin "Dərvişi", Sahil Laçınlının "Naxçıvanı", Əli Pənahoğlunun "Hüseyni", Nüsrət Nəsiboğlunun "Dilqəmi" və Fikrət Borçalının "Yüngül şərili" havacatları üstündə Şair Nəbinin şeirlərindən ibarət ifaları mərasim iştirakçılarının ruhunu oxşadı. Bədii qiraətçilər Aynur Qafarlı və Azər İqrar da şairin şeirlərini yüksək şövqlə səsləndirdilər.

Sonda Faxralı ağsaqqalları adından tanınmış alim – ziyalı Əmirxan Babaşov Şair Nəbinin "Yazılanlar gəldi başa" və "Eləsi var..." adlı kitablarında toplanmış şeirlərinin yaranma tarixindən söz açdı, təntənəli məclisə görə təşkilatçılara və iştirakçılara öz dərin minnətdarlığını bildirdi.

***Həzi HƏSƏNLİ,***
***şair - publisist***

Beynəlxalq həyat

# Rusiya və Çin ölkələrin seçiminə hörmət etməyə çağırır



**Çərşənbə günü Rusiya Prezidenti Vladimir Putin Pekində keçirilən "Bir kəmər, bir yol" forumu çərçivəsində Çin Xalq Respublikasının (ÇXR) sədri Si Cinpinlə danışıqlar aparıb. Görüşdə liderlər "ikitərəfli praktiki əməkdaşlığın cari problemlərini və beynəlxalq gündəliyi, o cümlədən, daha ədalətli çoxqütblü dünya nizamının yaradılması məsələlərini" müzakirə ediblər. Bu bəyanatlar bir daha təsdiqləyir ki, Moskva və Pekin ABŞ-ın təkqütblü dünya siyasətinə qarşıdır və müəyən sahələrdə ortaq mövqedən çıxış etməyə hazırdırlar.**

Oktyabrın 17 və 18-də Pekində üçüncü "Kəmər və Yol" Forumu keçirilib və 140-dan çox ölkədən 4 mindən çox insan iştirak edib. "G7" qrupunun nümayəndələri orada iştirak etmirlər. Foruma Rusiya Prezidenti Vladimir Putin də qatılıb. Bu, onun son il yarımda Çinə ilk səfəridir. Geniş proqram çərçivəsində forumda birbaşa iştirakla yanaşı, Rusiya lideri ÇXR Sədri Si Cinpinlə də daxil olmaqla bir sıra ikitərəfli danışıqlar aparıb. Dünya ictimaiyyətinin də maraqla izlədiyi görüşdə ÇXR Sədri Si Cinpin Pekində Rusiya Prezidenti Vladimir Putinlə geniş tərkibdə danışıqlar apararkən Rusiya liderini "özünün çoxdankı dostu" adlandırıb. "Hörmətli prezident Putin, mənim çoxdankı dostum, "Bir kəmər, bir yol" Üçüncü Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakınızı alqışlayırıq. Çin lideri əlavə edib ki, "İki tərəfin mühüm diplomatik tədbirlərində qarşılıqlı iştirak bizim çoxdankı yaxşı ənənəmizdir". Onun sözlərinə görə, Çin və Rusiya arasında ticarət dövriyyəsi tarixi rekordlara çatıb və 200 milyard dollarlıq hədəfə yaxınlaşır. "Məmnunluq hissi ilə bildirirəm ki, hökumətlər, nazirliklər və idarələr, eləcə də Çin və Rusiya regionları əldə olunan razılaşmaları həyata keçirmək üçün çox çalışırlar", – deyə Si Cinpin əlavə edib. O, həmçinin Çinin Rusiya ilə birlikdə ikitərəfli əməkdaşlığı yeni məzmunla zənginləşdirməyə hazır olduğunu vurğulayıb: "Biz rusiyalı tərəfdaşlarımızla birlikdə tarixi tendensiyanı aydın şəkildə dərk edərək və qlobal inkişaf tendensiyalarını izləyərək, inkişaf və tərəqqi naminə ikitərəfli əməkdaşlığı yeni dövrdə zəruri məzmunla davamlı olaraq zənginləşdirməyə hazırıq".

Rusiya Prezidenti Vladimir Putin də görüşdə Pekinlə bir sıra məsələlərdə razı olduğunu açıqlayıb. Cənab Putin bildirib ki, Rusiya və Çin dünyada bərabərhüquqlu əməkdaşlığa çalışırlar: "Biz dəfələrlə qeyd etmişik ki, Rusiya və Çin dünyanın əksər ölkələri kimi universal davamlı və uzunmüddətli iqtisadi tərəqqiyə nail olmaq üçün bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq cəhdlərini bölüşürlər". O qeyd edib ki, ölkələr hər bir dövlətin öz inkişaf modelinə olan hüquqlarına hörmət etməlidirlər. Rusiya liderinin sözlərinə görə, "Bir kəmər, bir yol" layihəsi "böyük Avrasiya məkanı yaratmaq ideyalarımızı birləşdirir" və hər iki ölkənin maraqlarına tam uyğundur. Çin lideri də vurğulayıb ki, Pekin "ideoloji qarşıdurmada, geosiyasi oyunlarda və ya blok siyasi qarşıdurmasında" iştirak etmir. Onun sözlərinə görə, ölkə "birtərəfli sanksiyalara, iqtisadi məcburiyyətə və əlaqələrin kəsilməsinə qarşıdır". Qeyd edək ki, "Bir kəmər, bir yol" təşəbbüsünün mahiyyəti Çinin iştirakı ilə mövcud regional ikitərəfli və çoxtərəfli qarşılıqlı fəaliyyət mexanizmləri və strukturlarını gücləndirməklə beynəlxalq əməkdaşlıq və inkişafın yeni modelini axtarmaq, formalaşdırmaq və təşviq etməkdir. Sentyabrın 22-də Çinin vitse-prezidenti Xan Çjen BMT Baş Assambleyasında çıxış edərək beynəlxalq ictimaiyyəti "beynəlxalq münasibətlərdə harmoniya və sabitliyi ciddi şəkildə pozan" birtərəfli sanksiyaları boykot etməyə çağırıb.

Mütəxəssislərin sözlərinə görə, Rusiya liderinin Pekinə hazırkı səfəri "yeni dövrdə Çin–Rusiya hərtərəfli strateji tərəfdaşlığının inkişafı üçün böyük əhəmiyyət kəsb edəcək". Çinli ekspert Çuy Henqin fikrincə, son 10 ildə Rusiya "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsində mühüm rol oynayıb. Belə ki, Rusiya ikitərəfli praqmatik əməkdaşlığı artırmağa və bütövlükdə Avrasiya iqtisadiyyatının inkişafına kömək edib. O, həmçinin deyib ki, cənab Putinin Çinə səfəri "ÇXR liderinin Si Cinpinin mart ayında Rusiyaya səfəri zamanı əldə edilmiş səmərəli nəticələrin təsdiqi olacaq". "Valday" Beynəlxalq Diskussiya Klubunun İnkişaf və Dəstək Fondunun sədri Andrey Bıstritski isə TASS-a eksklüziv müsahibəsində Rusiya və Çin arasında münasibətlərin dinamikasından danışarkən vurğulayıb ki, Çində Rusiyaya böyük maraq var. Ekspertin sözlərinə görə, Rusiya üçün Çinlə "Bir kəmər, bir yol" çərçivəsində qarşılıqlı fəaliyyət yeni dünyanın yaradılmasının bütün formalarıdır, ölkənin iştirak edə biləcəyi ən mühüm siyasi prosesdir: "Bu, böyük perspektivləri olan yeni dünyanın qurulmasıdır".

Andrey Bıstritski, həmçinin qeyd edib ki, Si Cinpin gərgin dövrdə cənab Putini qəbul edir və bu, Rusiya və Çin arasında qarşılıqlı əlaqə imkanlarının tükənmədiyi barədə başqalarına göndərilən müəyyən bir siqnaldır: "Gələcəkdə bu qarşılıqlı əlaqə daha da sıx və faydalı ola bilər. Təkcə ölkələrimiz üçün deyil, həm də bizi əhatə edən dünya üçün".

Qərbdə isə "Bir kəmər, bir yol" layihəsinə Çinin qlobal genişlənməsi və liderliyi, eyni zamanda, bütün nəqliyyat dəhlizlərini bir araya gətirmək və Avropanı Çin və Asiya malları ilə təmin etmək, eyni zamanda, yerli infrastruktura kapital yatırmaq üçün iddialı bir plan kimi qiymətləndirirlər. "Köhnə dünya" ilə, eyni zamanda, okeanın o tayı ilə münasibətləri korlanan Rusiya Çin ilə əlaqələrini gücləndirmək yolunu seçib. Eyni sözləri Pakistan barədə də demək olar. İslamabad da ümidlərini Çinə bağlayır. Forumun açılışı ərəfəsində "Nation" qəzetində dərc olunmuş məqaləsində Baş nazir səlahiyyətlərini icra edən Ənvar-ül-Haq Kakar Çin-Pakistan İqtisadi Dəhlizini "Bir Kəmər və Yol Təşəbbüsünün flaqman layihəsi" adlandırıb. Pakistan gözləyir ki, "Bir kəmər, bir yol" layihəsi müasir nəqliyyat şəbəkələrinin, enerji layihələrinin və xüsusi iqtisadi zonaların yaradılmasına imkan verəcək, həmçinin Afrika və Qərbi Asiyaya gələcək dəniz daşımaları üçün Çindən Qvadar limanına yüklərin dəmir yolu ilə çatdırılmasını təmin edəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Futbol tariximizdən

# "Neftçi"nin qızıl payızı

**On səkkiz oktyabr 1976-cı il. SSRİ çempionatının birinci dəstəsində finişə üç tur qalmış "Neftçi" öz meydanında Rostovun OİK komandasına böyük hesabla qalib gəlir – 4:1. Rafiq Əlizadə, Elbrus Abbasov və bu oyunda iki dəfə fərqlənən Nikolay Smolnikovun vurduqları qolların Azərbaycan paytaxtı komandasına qazandırdığı inamlı qələbədən sonra azarkeşlərin ürəyi yerinə düşür. "Neftçi" 20 kollektivin mübarizə apardığı turnirdə ikinci yeri özünə təmin edir və birinci pillənin sahibi Alma-Atanın "Kayrat" komandası ilə birlikdə dörd illik fasilədən sonra yenidən güclülər dəstəsində oynamaq hüququ qazanır.**



Həmin qızıl payız günlərində "Kayrat", "Paxtakor" (Daşkənd), "Nistru" (Kişinyov), "Torpedo" (Kutaisi), "Pamir" (Düşənbə), OİK (Rostov), "Dauqava" (Riqa), "Rubin" (Kazan) və daha 11 komanda ilə rəqabətdən şərəflə çıxan "Neftçi"yə və onun pərəstişkarlarına böyük sevinc bəxş edən səmimi və mübariz kollektivin bir çox üzvü bu gün həyatda yoxdur. Tarixi uğurun 47-ci ilində rostovlularla görüşdə meydana çıxan və ümidləri doğruldan komandanın oyunçularını bir daha hörmət və ehtiramla xatırlayaq, həyatda olanlara cansağlığı arzulayıb, dünyasını dəyişənlərə ruhunuz şad olsun deyək.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) 2011-ci ildə nəşr etdirdiyi "Azərbaycan futbolu-100" kitabından götürüb, bu gün diqqətinizə çatdırdığımız fotoda gördüyünüz futbolçular OİK-lə oyunda xalqımıza böyük sevinc bəxş etmiş komandadır. Ayaq üstə duranlar (soldan sağa): Anatoli Banişevski, Elbrus Abbasov, Əli Rəhmanov, Yuri Romenski, Əbdülqəni Nurməmmədov, Nikolay Smolnikov, Asəf Namazov; oturanlar: Səməd Qurbanov, Rafiq Əlizadə, Arif Orucov, Bəxtiyar Qulamov, Rəşid Özbəyov.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Yaxın Şərq: Qəzzadakı partlayış Baydenin səfərini kölgədə qoyub

**(əvvəli 1-ci səhifədə)**

Qəzza rəsmiləri xəstəxanada baş verən partlayışda İsrailin hərbi qüvvələrinin "əli" olduğunu iddia edirlər və qarşı tərəfin tam məsuliyyət daşıdığını bildirirlər. İsrail siyasətçiləri isə bu ölkənin silahlı qüvvələrinin hücumda iştirakını inkar edirlər.

İsrail Müdafiə Qüvvələrinin rəsmisi dünən axşam saatlarında bir daha Təl-Əvivin Qəzzadakı xəstəxanada yüzlərlə insanın ölümünə səbəb olan partlayışla heç bir əlaqəsi olmadığını və partlayışın Fələstinin "İslami cihad" qruplaşması tərəfindən səhvən atılan raketlə törədildiyini bildirib. Lakin sonuncu İsrailin hücuma görə məsuliyyət daşıdığına dair ittihamlarını qəbul etməyib.

Ağ evin rəhbəri ABŞ-ın uzunmüddətli müttəfiqinə dəstəyini nümayiş etdirmək üçün dünən günorta saatlarında Təl-Əvivə gəlib. Burada o, dərhal Baş nazir Binyamir Netanyahu ilə geniş müzakirələr aparıb.

Co Bayden bir daha ABŞ-nin İsrailə dəstəyini bəyan edib: "Bilməyinizi istəyirəm ki, siz tək deyilsiniz! Daha əvvəl də bəyan etdiyim kimi, biz İsrailin arxasında dayanmağa davam edəcəyik. Siz öz xalqınızı qoruyursunuz. Biz sizinlə və regiondakı tərəfdaşlarımızla günahsız mülki insanlara qarşı faciələrin qarşısını almaq üçün çalışmağa davam edəcəyik".

Bayden qeyd edib ki, 75 il əvvəl İsrail dövlətinin əsasını qoyanlar bunun azadlığa, ədalətə və sülhə əsaslanacağını elan edib. O əlavə edib ki, ABŞ bu prinsiplərin qorunması üçün İsrailin yanında olacaq: "Bu gün, sabah və həmişə! Mən sizə söz verirəm". Bayden qeyd edib.

Qeyd edək ki, Baydenin Təl-Əvivdən Əmmana gedərək İordaniya kralı II Abdullahla görüşəcəyi, daha sonra isə II Abdullahın evsahibliyi edəcəyi və Fələstin Prezidenti Mahmud Abbas ilə Misir Prezidenti Əbdül Fəttah əs-Sisinin qatılacağı dördtərəfli sammitdə iştirakı gözlənilirdi.

İordaniya rəsmisi Fələstin və Misir liderlərinin də qatılacağı zirvə görüşünün baş tutmayacağını açıqlayıb. Görüşün Qəzzadakı xəstəxananın vurulmasından sonra Fələstin lideri Mahmud Abbasın toplantıya qatılmasından imtina etməsi səbəbindən ləğv olunduğu bildirilir.

Qəzzada "Əl-Əhli Ərəb" xəstəxanasında baş vermiş güclü partlayışla bağlı həyəcan və narahatlıqlar ABŞ Prezidenti Co Baydenin İsrailə səfərini də kölgədə qoyub. Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen dünən səhər Avropa Parlamentinin Strasburqda keçirilən plenar iclasında çıxışı zamanı bildirib ki, Qəzzada xəstəxanaya hücuma görə məsuliyyət daşıyanlar cəzalandırılmalıdır.



Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel isə özünün "X" səhifəsində yazıb ki, Qəzzada xəstəxananın vurulması ilə bağlı bütün faktların hərtərəfli araşdırılması və günahkarların məsuliyyətə cəlb olunması vacibdir.

Dünən yayılan xəbərlərə görə, Livanın paytaxtı Beyrutda ABŞ səfirliyinə hücum edilib. TASS xəbər verir ki, Livan polisi ABŞ səfirliyinə basqın etməyə cəhd edən fəallara qarşı su şırnaqları və gözyaşardıcı qazdan istifadə edib.

Görünən budur ki, regionda gərginlik artır. Prezident Baydenin bölgəyə səfəri də Yaxın Şərqin səmasını bürüyən "savaş buludları"nın çəkilməsinə şərait yarada bilmədi. Halbuki, bu gün hər iki xalqa sülh hava-su kimi lazımdır.

***M.HACIXANLI***
***XQ***


## "Azərişıq"ASC

"Kəlbəcərin İstisu qəsəbəsi ərazisində yeni 110/35 kV-luq 2x40 MVA gücündə yarımstansiyanın tikintisi və avadanlıqlarının quraşdırılması" işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. "Azərişıq"ASC-nin "Kəlbəcərin İstisu qəsəbəsi ərazisində yeni 110/35 kV-luq 2x40 MVA gücündə yarımstansiyanın tikintisi və avadanlıqlarının quraşdırılması" işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat-"Azərişıq" ASC

H/h- AZ83AIIB33020029441802068118

VÖEN- 9900069391

Benefisiarın Bankı- "Kapital Bank" ASC-nin Gənclik filialı

Kod- 200189

VÖEN- 9900003611

M/h- AZ37NABZ01350100000000001944

SWIFT Code: AIIBAZ2X

Əlaqələndirici şəxs- Namik Heybətov.

Əlaqə telefonu (şəhər) - 012 440 39 93 (daxili 92-19) .

Elektron poçt: namiq.heybetov@azerishiq.az

Ünvan - AZ1009. Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə. (sənədlərin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış. (sənədlərin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış. (sənədlərin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı.
8. İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki).
10. İddiaçının son 3(üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat.
11. İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün göstərilən sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elektrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olmağı vacibdir. Bununla yanaşı "PODRATÇI" son üç ildə elektrik stansiyalarının, xüsusilə 110kV-luq yarımstansiyaların, elektrik verilişi xətlərinin tikintisi və yenidənqurulması üçün hər birinin ümumi məbləği 5 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış olmalı və təsdiqedici sənədləri təqdim etməlidir.
12. Müvafiq lisenziya və icazələr.
13. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
14. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
15. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
16. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 noyabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 4 dekabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 5 dekabr 2023-cü il saat 15.00-da Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## Azərbaycan Turizm və Menecment Universiteti Kafedra müdiri vəzifəsini tutmaq üçün MÜSABİQƏ ELAN EDİR

Menecment kafedrası üzrə – 1 yer.

Sənədlər elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim edilməlidir. Sənədlər hr@atmu.edu.az mail ünvanı vasitəsilə elektron qaydada da qəbul edilir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər.

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (4x6 sm ölçüdə fotoşəkillə).
3. Tərcümeyi-hal.
4. Şəxsiyyət vəsiqəsinin surəti.
5. Profilə uyğun olaraq ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin təsdiq olunmuş surətləri.
6. Elmi və elmi-metodiki işlərin siyahısı.
7. Dekan və kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Qeyd- namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

Telefon- 564-42-33 (daxili - 115).

Ünvan- AZ1072. Bakı şəhəri, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, 103-cü otaq.

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 228 (30344) 19 oktyabr 2023-cü il, cümə axşamı

# Özbəkistanda Şuşa ensiklopediyası

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə "Şuşa Türk dünyasının mədəniyyət paytaxtı" adlı Azərbaycan, özbək, türk, ingilis və rus dillərində ensiklopedik kitab çap edilib.**




Daşkənddəki "Niso Poligraf" nəşriyyatında nəşr olunan topluda Şuşanın tarixi, mədəniyyəti, incəsənəti, ədəbi mühiti, elm və təhsil müəssisələri, tanınmış ədəbiyyat, mədəniyyət, incəsənət, xadimləri, ictimai siyasi həyatı, abidələri, təbiəti, turizm məkanları,aparılan quruculuq işlərinə dair məlumatlar, fotoşəkillər yer alıb.

Kitabda qeyd olunur ki, Şuşa ili və bu qədim şəhərin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə əlaqədar AMM bir sıra layihələr həyata keçirib: ilk dəfə olaraq XIX əsrdə Şuşada fəaliyyət göstərən "Məclisi- fəramuşan" poeziya məclisi iki ölkənin gənc şairləri arasında yenidən bərpa edilib, Şuşa şəhər kitabxanası ilə Özbəkistanın "Turan" kitabxanası arasında "qardaş kitabxanalar" haqqında müqavilə imzalanıb. Nəşrdə bildirilir ki, "Turan" kitabxanasında "Şuşa guşəsi" yaradılıb, Termez Dövlət Universitetində "Xurşidbanu Natəvan adına Azərbaycan Ocağı" fəaliyyətə başlayıb. Azərbaycanın Şuşa və Özbəkistanın Xivə şəhərlərinin qardaşlaşması layihəsi reallaşdırılıb.

Topluda qeyd edilir ki, Özbəkistan səhnəsində müsəlman Şərqində ilk operanın müəllifi, Üzeyir Hacıbəylinin əsərlərindən ibarət konsertlər təşkil olunub, Xurşidbanu Natəvanın şeirlərinin özbək dilində nəşri reallaşdırılıb, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə birlikdə "Özbəkistanda Şuşa günləri" adlı silsilə tədbirlər keçirilib. Kitabın Özbəkistanda geniş təqdimatının keçirilməsi nəzərdə tutulur.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

## İdman xəbərləri

### "Azərreyl"in növbəti qələbəsi

**"Azərreyl" klubu Çelenc Kubokunda növbəti qələbəsini qazanıb.**



Qadın voleybolçulardan ibrət komandamız 1/32 final mərhələsinin cavab matçında da Ukraynanın "Balta" kollektivi ilə qarşılaşmada inamlı təsir bağışlayıb. Bakıda Voleybol Mərkəzində keçirilən matç təmsilçimizin 3:0 hesablı qələbəsi ilə başa çatıb.

Bununla da, Azərbaycan təmsilçisi 1/16 finala yüksəlib.

Qeyd edək ki, "Azərreyl" klubu ilk qarşılaşmada da rəqibini eyni hesabla üstələyib. Növbəti mərhələdə komandamız İspaniyanın "Avarka de Menorka" klubu ilə mübarizə aparacaq.

### Cüdoçularımız Olimpiya reytinqində öndədir

**Olimpiya reytinqində Azərbaycanın iki cüdoçusu ilk 3-lükdə qərarlaşıb.**



Aktivində 3398 xal olan Hidayət Heydərov 73 kiloqram çəki dərəcəsində ikinci yerdədir. Zelim Kotsoyev (100 kq) 3560 xalla üçüncü pillədədir. Balabəy Ağayev (60 kq) 2688 xalla 5-ci, həmin çəkidə Turan Bayramov 1735 xalla 17-ci sıradadır. Yaşar Nəcəfov isə 66 kiloqram çəki dərəcəsi üzrə 2588 xalla 5-ci sıradadır.

Daha bir çəki– 81 kiloqram dərəcəsi üzrə təmsilçilərimizdən Səid Mollayi fərqlənib. O, 3083 xalla 4-cüdür. Eyni çəkidə Zelim Tçkayev (2079) 13-cü mövqeyi tutur. Komandamızın digər üzlərindən Uşanqi Kokauri (+100 kq) 2089 xalla 10-cu, Murad Fətiyev (90 kq) 1864 xalla 15-ci yerdədir.

Qadınlara gəlincə, ən yaxşı nəticə 48 kiloqram çəki dərəcəsində Leyla Əliyevaya (1568) məxsusdur. Tatami ustası 22-cidir. Gültac Məmmədəliyeva (52 kq) isə 1640 xalla 15-ci pillədə qərarlaşıb.

### Gimnastlarımız gümüş medal qazanıblar

**Azərbaycan millisi akrobatika gimnastikası üzrə Bolqarıstanın Varna şəhərində keçirilən Avropa çempionatında medal qazanıb.**



Nəzrin Zeyniyeva, Zəhra Rəşidova və Anahita Bashiridən ibarət qadın qrupu (gənclər) qitə çempionatında uğurla çıxış edərək gümüş medala sahib olub.

Yarış oktyabrın 22-dək davam edəcək.

**Leyla QURBANOVA**
**XQ**

## Texnologiya yenilikləri

### "WhatsApp"da asan mesaj

**"WhatsApp" tərtibatçıları messengerdə səsli və video mesaj göndərmə üsulunu tamamilə yenidən dizayn ediblər.**



Belə ki, "WhatsApp"ın "iPhone" üçün 23.21.1.71 nömrəli "beta" versiyasının çat dizaynında dəyişikliklər edilib. Qeyd edək ki, bu yenilik sayəsində istifadəçilərin səsli və video mesajlar arasında seçim etmələri asanlaşacaq.

Tərtibatçılar bunun mikrofon işarəsinə toxunan və daha sonra bilmədən səsli mesaj əvəzinə video mesaj göndərən diqqətsiz istifadəçilərə kömək etmək üçün nəzərdə tutulduğunu bildirirlər.

Rejimlər arasında keçid üçün yeni menyu hazırda "WhatsApp"ın cari beta versiyasını quraşdırmış bəzi istifadəçilər üçün əlçatan olacaq. Yeniliyin digər istifadəçilərə nə vaxt görünəcəyi isə məlum deyil.

***S. FİDAN***
***XQ***

## Kosmos

### Kosmik məkanda yanacaqdoldurma

**Cef Bezosun "Blue Origin" kosmik şirkəti kosmik logistikanın və çatdırmanın təmin edilməsinə istiqamətlənən "Blue Ring" çoxfunksional platformanı təqdim edib.**



Beşillik istismar müddəti üçün nəzərdə tutulan platforma orbitdə kosmik aparatları yanacaqla doldura biləcək. "Blue Origin" milyonlarla insanın kosmosda yaşayacağı və işləyəcəyi gələcəyi qurmağa çalışaraq, dəfələrlə istifadə edilə bilən raketlərin, orbit stansiyalarının və Ay eniş aparatlarının yaradılması üzərində işləyir.

Məlumat verilir ki, layihə orbital vasitələr, yedəklər və ESPA hərəkətverici qurğuların bütün mövcud onlan konsepsiyalarını üstələyəcək. "Blue Ring" 3 tondan çox faydalı yük daşıya biləcək. Platforma, təxminən, 43 metr məsafədə açılan günəş panelləri ilə təchiz olunacaq. "Blue Ring" ilk dəfə 2025-ci ildə işə salınacaq.

***N.AYTƏN***
***XQ***

## İbrətamiz əhvalatlar

**"Xalq qəzeti" bu sayından məşhur şair və ədiblərimizin həyatında baş verən bəzi maraqlı əhvalatları oxuculara təqdim etməyə başlayır. İlk ilk nümunələr böyük yazıçımız Cəlil Məmmədquluzadənin həyatından götürülüb.**

### Mirzə Cəlil cibgiri necə xilas etdi?

**Cəlil Məmmədquluzadə bir gün Tiflisdə yolla gedirmiş, bir nəfər cavan oğlan arxadan yaxınlaşıb onun cibinə girir və əlyazmalarını çıxarır.**




Bu hadisəni, demə, polis görürmüş. O, gənci dərhal yaxalayır.

Mirzə Cəlilin oğlana yazığı gəlir, yaxınlaşıb polisin yanında ərklə ona deyir:

– Mən sənə deməmişəmmi, tələsmə, jurnalda çıxar, oxuyarsan! – deyərək kağızları cavan oğlandan alır.

Polis gəncin "Molla Nəsrəddin"in redaktorunu tanıdığını yəqin edir və onu buraxır. Üstəlik, yazıçıdan da üzr istəyir.

### "Molla Nəsrəddin" qənaətcilliyi

**"Molla Nəsrəddin" jurnalının redaksiyasında bəzi qəribəliklər vardı. Məsələn, qapının zəngi tez-tez xarab olardı, samovar axardı, bəzən ocağı qalamağa odun çatmazdı və s.**




Jurnalın baş redaktoru Cəlil Məmmədquluzadəyə "filan şeyin təmirə ehtiyacı var" deyəndə sözü bu olardı:

– Belə də ötüşərik. Molla Nəsrəddin kimi olmaq lazımdır. Əgər bizim hər şeyimiz yerli-yerində olsa, onda Molla Nəsrəddinə bənzəmərik.

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

## HAVA

### Hava yağmurlu və küləkli olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 19-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**



Gündüz yağışda fasilə olacaq. Cənub-şərq küləyi əsəcək, gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 12-16°, gündüz 17-21° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 15-20° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-8° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**ARİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***✓ "NTC Company" MMC-nin (VÖEN 1401759931) 3 (üç) əməkdaşının– Cahargah Habil oğlu Məmmədovun, Cəmşid Şəfaqət oğlu Maharovun və Danial Mirzə oğlu Hacıyevin şəxsi işləri itmişdir. Tapan şəxsi mükafat gözləyir. (Vüqar, telefon - 051 215 28 25).***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4818
SİFARİŞ 2713
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00